TƏCRÜBƏSİZLİYİN SƏBƏB OLDUĞU FƏSADLAR

# İDMAN ZALLARINDA GİZLİ RİSKLƏR

Sentyabrın 29-da Əməkdar artist Cabir İmanovun idman zalında ürək tutmasından dünyasını dəyişməsi kədərli fakt oldu. Ölüm faktının idman zalında baş verməsi suallar da doğurdu. Çünki bundan öncə də idman zallarında ürək tutmasından baş verən ölüm faktları olmuşdu.

Nutrisioloq Emil Allahverdiyevin fikrincə, idmana başlamazdan əvvəl sağlamlıq müayinəsindən keçmək lazımdır: “Yaşın 40-ın üzərindədirsə, heç vaxt idmanla məşğul olmamısansa, idmana gedirsənsə, müayinə mütləqdir. Xroniki xəstəliklər varsa, həkimlə məsləhətləşmək lazımdır”.

SƏHİFƏ 9-da



‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

4 OKTYABR ŞƏNBƏ 2025 № 38 (4239) Qiyməti - 60 qəpik www.kaspi.az






## BİNALARIN ENERJİ PASPORTU OLACAQ

Enerji pasportu binanın enerji səmərəliliyi şəhadətnaməsidir. Yeni tikililərdə bu sənəd olmadan istismara icazə verilməyəcək. Reytinqi yüksək olan evlər həm daha az enerji xərcləyəcək, həm də bazarda daha baha satılacaq.

SƏHİFƏ 6-da




## AZƏRBAYCANIN YENİ İXRAC TRENDLƏRİ

Son illərdə qeyri-ənənəvi qida məhsullarının ixracında artım müşahidə edilir. Çeşidlərin sayı da artmaqdadır. Bununla belə, ekspertlər sözügedən sahədə ekosistemin qorunmasının vacibliyini də önə çəkirlər.

SƏHİFƏ 12-də




## NƏ ALDIĞI PULU QAYTARIR, NƏ DƏ...

Vətən müharibəsi iştirakçısı Nadir Qasımov internetdən tapıb evinin təmiri ilə bağlı müqavilə imzaladığı şirkət tərəfindən aldadıldığını iddia edir. Təmir pulunu əvvəlcədən alan şirkət isə, nə təmirə başlayır, nə də pulu geri qaytarır.

SƏHİFƏ 14-də

AZƏRBAYCANA ARTAN MARAĞIN GÖSTƏRİCİSİ SAYILAN GÖRÜŞLƏR



# AVROPA ÜÇÜN MÜHÜM TƏRƏFDAŞ

Kopenhagen Zirvəsi Azərbaycanın diplomatik zəfəri kimi yadda qaldı. Zirvə toplantısı çərçivəsində keçirilən görüşlər, aparılan müzakirələr bir daha Azərbaycana və onun rəhbərinə verilən dəyərin bariz nümunəsidir.

**KOPENHAGEN ZİRVƏSİNDƏ SÜLH GÜNDƏLİYİ**

Kopenhagen Zirvəsi həm də Azərbaycan və Ermənistan arasında sülh prosesinin yenidən ələ alınması üçün bir imkan idi. Prezident İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan bu fürsəti dəyərləndirərək iki ölkə arasında sülh gündəliyi ilə bağlı qarşılıqlı müzakirələr apardılar.

**DÖNÜŞ ETMƏK MƏCBURİYYƏTİNDƏDİRLƏR**

Xüsusi vurğulanmalıdır ki, Vaşinqtondakı tarixi razılaşmalardan sonra Bakıya qarşı özünün ikili standartlı mövqeləri ilə seçilən bəzi Avropa ölkələri də artıq “U” dönüşü etmək məcburiyyətindədirlər.

SƏHİFƏ 2-də

Yuxu rejimi, istirahət, balanslı qidalanma

## ÖLKƏDƏ YAYILAN VİRUS TƏHLÜKƏLİDİRMİ?



Son günlər ölkə ərazisində müxtəlif infeksion xəstəliklərin artması müşahidə olunur. Yaşından asılı olmayaraq, bir çox insan müxtəlif viruslarla mübarizə aparır. Virusa yoluxanlar əsasən, yüksək hərarət, davamlı öskürək, boğaz ağrısı kimi əlamətlərdən şikayətlənirlər. Eyni zamanda, cəmiyyətdə COVID-19-un yenidən yayılması ilə bağlı narahatlıqlar və müzakirələr də gündəmdədir.

SƏHİFƏ 7-də



## HƏR QƏLBDƏ BİR QƏLƏBƏ ÇAĞIRIŞI İLƏ

Azərbaycan növbəti dəfə böyük multiidman yarışına ev sahibliyi edir. Bu dəfə III MDB Oyunları ölkəmizdə keçirilir. Odlar Yurdu qonaqpərvərliyini və təşkilatçılıq bacarığını ortaya qoyaraq dünyanın diqqətini yenidən özünə yönəldir.

SƏHİFƏ 16-da



## SUYU HAVADAN, YOXSA YERDƏN ƏLDƏ EDƏK?

Mütəxəssislər uzun illərdir xəbərdarlıq edirlər: yaxın illərdə içməli su çatışmazlığı ən böyük qlobal problemlərdən biri olacaq. Artan əhali, dəyişən iqlim, çirklənmə və israfçılıq səbəbindən su ehtiyatları sürətlə tükənir.

SƏHİFƏ 13-də



## FƏRQLİLİKLƏRİN HARMONİYA NÖQTƏSİ

“Əvvəllər, demək olar ki, bütün ailələrdə uşaqlar musiqi təhsili alardılar. Bir alətdə ifa etməyi öyrənərdilər. Əksər ailələrdə pianino, tar, kamança, qarmon və s. alətlər olardı. Bu ailələrdə uşağı məhz musiqiçi etmək məqsədi yox idi”.

SƏHİFƏ 15-də



“Qoca qitə”dəki ən etibarlı dostumuz

SƏHİFƏ 3-də



Hindistan daxildən qaynayır

SƏHİFƏ 5-də



“Ali təhsil haqqında” qanun niyə gecikir?

SƏHİFƏ 4-də



Evimizdəki “Wi-Fi” təhlükəsi

SƏHİFƏ 11-də



Dünya çempionatına ev sahibliyi edəcəyik

SƏHİFƏ 10-da

# AVROPA ÜÇÜN ÇOX MÜHÜM TƏRƏFDAŞ

Avropa ailəsinin Kopenhagen Zirvəsi Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın daha bir diplomatik zəfəri kimi yadda qaldı. Zirvə toplantısı çərçivəsində keçirilən görüşlər, aparılan müzakirələr bir daha Azərbaycana və onun rəhbərinə verilən dəyərin bariz nümunəsidir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Prezident İlham Əliyevin Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak etmək üçün bu ölkəyə işgüzar səfəri özünün zənginliyi və əhəmiyyəti ilə yadda qaldı. Zirvə toplantısı çərçivəsində keçirilən görüşlər, aparılan müzakirələr bir daha Azərbaycana və onun rəhbərinə verilən dəyərin bariz nümunəsidir.

### QARŞI TƏRƏFİN İSTƏYİ İLƏ REALLAŞAN GÖRÜŞLƏR

Dövlət başçısının ikitərəfli görüşlərinin hər biri məhz qarşı tərəfin istəyi əsasında reallışıb ki, bu da Azərbaycana artan marağın göstəricisi sayıla bilər.

Prezident İlham Əliyev səfər çərçivəsində Moldova Prezidenti Maya Sandu ilə görüşüb. Dövlət başçısı Moldovada keçirilmiş parlament seçkilərində Sandunun rəhbərlik etdiyi hakim Fəaliyyət və Həmrəylik Partiyasının qələbə qazanması münasibətilə təbriklərini çatdıraraq, bu seçkilərin Moldova xalqının iradəsini əks etdirdiyini deyib. Prezident Maya Sandu Moldovanın xüsusilə enerjiyə ehtiyac duyduğu zamanda Azərbaycanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd edib.

Dövlət başçısının ukraynalı həmkarı Volodimir Zelenski ilə görüşü də diqqət çəkib.

Ukrayna Prezidenti Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələr münasibətilə İlham Əliyevə təbriklərini çatdırıb. Görüşdə Azərbaycanın Ukraynaya humanitar dəstəyi, xüsusilə də ukraynalı uşaqlara göstərilən diqqət və qayğı qeyd olunub. Söhbət zamanı iki ölkə arasında enerji sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

### KOPENHAGENDƏ SÜLH GÜNDƏLİYİ

Kopenhagen Zirvəsi həm də Azərbaycan və Ermənistan arasında sülh prosesinin yenidən ələ alınması üçün bir imkan idi. Tərəflər bu fürsəti dəyərləndirərək iki ölkə arasında sülh gündəliyi ilə bağlı qarşılıqlı müzakirələr apardılar. Prezident İlham Əliyevin Ermənistan Baş naziri Nikol Paşinyanla görüşündə tərəflər ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə keçirilmiş Vaşinqton Sülh Sammitində əldə olunan razılaşmaların əhəmiyyətini vurğulayıblar. Onlar Ermənistan və Azərbaycan arasında sülhün daha da möhkəmləndirilməsi istiqamətində səy göstərməyə hazır olduqlarını bir daha təsdiq ediblər.

Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri regionda nəqliyyat kommunikasiyalarının faydalarını vurğulayıb, Azərbaycan ərazisində infrastrukturun inkişafı ilə bağlı cari işlərin gedişatı və Ermənistan ərazisində TRIPP layihəsini müzakirə edib, Vaşinqton Bəyannaməsinin icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər bu xüsusda ATƏT-in Minsk prosesinin və onunla əlaqəli strukturların ləğv olunması ilə bağlı yekdilliklə qəbul edilmiş qərarı alqışlayıblar.

Görüşdə tərəflər etimad quruculuğu tədbirlərinin bundan sonra da həyata keçirilməsinin vacibliyini vurğulayıb və təmasları davam etdirmək barədə razılığa gəliblər.



## MAKRONUN GÖRÜŞ XAHİŞİ

Bu səfər qlobal miqyasda Azərbaycanın artan rolunun daha bir təzahürü kimi də qiymətləndirilə bilər. Xüsusi vurğulanmalıdır ki, Vaşinqtondakı tarixi razılaşmalardan sonra Bakıya qarşı özünün ikili standartlı mövqeləri ilə seçilən bəzi Avropa ölkələri də artıq "U" dönüşü etmək məcburiyyətindədirlər. Bölgəmizdə yaranmış reallıq çərçivəsində əməkdaşlıq imkanlarının Azərbaycansız mümkün olmadığını hər kəs artıq anlayır. Xüsusilə də Fransa Prezidenti Emmanuel Makron. Qarşı tərəfin istəyi əsasında reallaşan Əliyev-Makron görüşü də Zirvə toplantısına damğa vuran əsas siyasi hadisələrdən biri hesab olunur.

Fransa Prezidenti Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyi ilə əlaqədar nəticələr münasibətilə azərbaycanlı həmkarını təbrik edib.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Vaşinqtonda əldə olunmuş nəticələrin regional sülh gündəliyinin irəli aparılması üçün tarixi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Dövlət başçısı hazırda sülh gündəliyinin irəliyə aparılması üçün müxtəlif istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin həyata keçirildiyini qeyd edib. Görüşdə Azərbaycanla Fransa arasında əlaqələrin mövcud vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb.



## MÜHÜM TƏRƏFDAŞ VƏ VAZKEÇİLMƏZ MÜTTƏFİQ

Bu gün Azərbaycan Avropada çox mühüm tərəfdaş və vazkeçilməz müttəfiq kimi qəbul edilir. Zirvə görüşü çərçivəsində Prezident İlham Əliyevə göstərilən diqqət və böyük hörmət Azərbaycan liderinin Avropada yüksək nüfuzunun olduğunun göstəricisidir. Bütün görüşlərdə hiss edilən bu pozitiv ruh Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşündə də müşahidə edildi. Görüşdə Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı rola toxunulub, 2022-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair əldə edilmiş razılaşmaya uyğun olaraq Azərbaycanın Avropanın qaz bazarına ixracının həcminin artdığı bildirilib.

Prezident İlham Əliyev hazırda Avropanın 10, o cümlədən Avropa İttifaqının 8 üzv dövlətinin Azərbaycan qazını aldığını bildirib və bunun Avropa İttifaqının enerji təhlükəsizliyinə mühüm töhfə olduğunu deyib.

Dövlət başçısı Azərbaycanın Orta Dəhlizin inkişafında oynadığı rolu qeyd edərək, ölkəmizdə nəqliyyat-logistika infrastrukturunun inkişaf etdirilməsi istiqamətində görülən işlərdən danışıb və hazırda Mərkəzi Asiyadan Azərbaycan ərazisindən nəqliyyat daşımalarının həcminin artdığını bildirib.

Beləliklə, Avropa ailəsinin Kopenhagen Zirvəsi Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın daha bir diplomatik zəfəri kimi yadda qaldı.

# “QOCA QİTƏ”DƏKİ ƏN ETİBARLI DOSTUMUZ

İtaliya-Azərbaycan əlaqələri, o cümlədən Avropa İttifaqı ilə münasibətlər Bakının çoxşaxəli xarici siyasət kursunun ən önəmli istiqamətlərindən birini təşkil edir. Energetika, yaşıl enerji, hərbi-texniki və mədəni-iqtisadi sahədə əlaqələrin genişləndirilməsi ölkəmizin dünyada artan nüfuzunun göstəricisidir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



İtaliya Prezidenti Sercio Mattarella Azərbaycana növbəti dəfə səfər edib. Bu səfər həm iki ölkə arasındakı qarşılıqlı strateji münasibətlərin, həm də Avropa İttifaqı (Aİ) ilə Bakı arasındakı əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Bu gün İtaliya Aİ çərçivəsində təşkilatın üç ən böyük üzvündən biridir. Təbii ki, Bakı-Roma münasibətlərinin davamlı inkişafı Azərbaycan üçün strateji əhəmiyyətə malikdir.

### Aİ İLƏ ƏLAQƏLƏRDƏ MÜSBƏTƏ DOĞRU ADDIMLAR ATILIR

Bu vurğu Prezident İlham Əliyevin italiyalı həmkarı ilə keçirdiyi birgə mətbuat konfransında səsləndirdiyi fikirlərdə də dominantlıq təşkil edib.

Azərbaycan Prezidenti qeyd edib ki, tərəflər arasında siyasi əlaqələr ən yüksək səviyyədədir. İqtisadi sahədə İtaliya Azərbaycan üçün birinci ticarət tərəfdaşdır və ildən-ilə ticarət dövriyyəmiz artmaqdadır: “Energetika sahəsində bir çox önəmli layihələr icra edilmişdir. Xüsusilə Azərbaycan neftini və qazını İtaliyaya ixrac etməklə biz dünya bazarlarına geniş həcmdə öz təbii resurslarımızı göndərə bilmişik. Eyni zamanda, bir çox ölkələrin enerji təhlükəsizliyinə də öz töhfəmizi vermişik”.

Dövlət başçısı Aİ-Azərbaycan əlaqələrinə də toxunub. Bildirib ki, italiyalı həmkarı ilə bu istiqamətdə də müzakirələr aparıb: “İtaliya hər zaman Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafına dəstək vermişdir, bu gün də biz bunu hiss edirik və son vaxtlar Avropa İttifaqı-Azərbaycan əlaqələrində də müsbətə doğru addımlar atılır. Bu da bizi təbii olaraq məmnun edir”.

## “Azərbaycan çox nüfuzlu tərəfdaşdır”

Bu məsələdə İtaliyanın Azərbaycana hərtərəfli dəstəyi Prezident Sercio Mattarella tərəfindən də qeyd olunub. Onun sözlərinə görə, Bakının Brüssellə əməkdaşlığı ilə bağlı İtaliya öz tərəfindən addımlar atacaqdır: “Xüsusi qeyd edirəm ki, Azərbaycan geniş şəkildə çox nüfuzlu bir tərəfdaşdır. Avropa İttifaqı bunu görür və təbii ki, bizim sizinlə əməkdaşlığımız bu çərçivədə də çox əhəmiyyətli olacaqdır. Biz əlimizdən gələni edəcəyik ki, bu əlaqələr daha da artsın, inkişaf etsin və hər zaman daha çox yeni sahələri əhatə etsin, ölkələrimizin, xalqlarımızın rifahına xidmət etsin. Bu məqsədlə də mən Bakıya səfərə gəlmişəm”.

### İTALİYA-AZƏRBAYCAN UNİVERSİTETİ AMİLİ

Qeyd edək ki, iki ölkə arasında münasibətlər digər sahələri də əhatə edir. Burada Azərbaycan və İtaliya arasında hərbi-texniki və müdafiə sənayesi sahəsində əməkdaşlıq xüsusi yer tutur. Bundan əlavə, təhsil sahəsində də önəmli addımlar atılmaqdadır. Bunun sübutu olaraq, dövlət başçılarının birgə açılışını etdikləri İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının yaradılmasını qeyd edə bilərik. Xatırladaq ki, bu təşəbbüs 2020-ci ildə Prezident İlham Əliyev tərəfindən İtaliyaya dövlət səfəri zamanı irəli sürülüb.



Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev vurğulayıb ki, həm İtaliya, həm də Azərbaycan bu sahədə əməkdaşlığa çox böyük əhəmiyyət verir: “Əminəm ki, universitetin gələcəyi çox parlaq olacaq. Bu, nəinki Azərbaycanda, dünya miqyasında öz layiqli yerini tutacaq, universitetin məzunları isə Azərbaycanın inkişafına öz töhfələrini verəcəklər”.

Sercio Mattarella da bu təşəbbüsdən olduqca məmnundur: “Onun Azərbaycanla birgə reallaşdırılmasından İtaliya fərəh hissi duyur. Bu universitet nəinki geniş imkanları, resursları, tədqiqat və tədrisi, dosentləri, təhsil alan gənc azərbaycanlı və italyan tələbələri bir araya gətirir, o cümlədən Azərbaycan ilə İtaliya arasında yüksələn xətlə artan, intensiv və geniş dostluğu əks etdirir”.

## Bölgənin əsas söz sahibi rəsmi Bakıdır

Göründüyü kimi, Azərbaycan növbəti dəfə dünyanın ən nüfuzlu ölkələrindən birinin ali rəhbərinin səfər etdiyi ölkə olaraq, dünyanın diqqət mərkəzinə düşdü. İtaliya-Azərbaycan əlaqələri, o cümlədən Avropa İttifaqı ilə münasibətlər Bakının çoxşaxəli xarici siyasət kursunun ən önəmli istiqamətlərindən birini təşkil edir. Energetika, yaşıl enerji, hərbi-texniki və mədəni-iqtisadi sahədə əlaqələrin genişləndirilməsi ölkəmizin dünyada artan nüfuzunun göstəricisidir. Bu səfərin reallaşması və aparılan müzakirələrlə Azərbaycan bir daha sübut etdi ki, bölgənin əsas söz sahibi rəsmi Bakıdır. Azərbaycanın Şərq və Qərblə, həmçinin digər mərkəzlərlə qurduğu konstruktiv, çoxşaxəli əməkdaşlıq strukturu bu gün Cənubi Qafqazı dünyanın ən çox diqqət yetirilən, geosiyasi və qlobal əhəmiyyəti günü-gündən artan bölgələrindən birinə çevirir. Bu siyasi mənzərənin əsasında isə son illərdə Azərbaycanın beynəlxalq miqyasda əsas oyunçulardan və aktorlandan biri olaraq qəbul edilməsi dayanır.



# “ALİ TƏHSİL HAQQINDA” QANUN NİYƏ GECİKİR?



**Qanun layihəsi artıq beşinci sessiyadır ki, parlamentin iş planına salınsa da, plenar iclasda müzakirəsi alınmır. Bu qanunun qəbulu distant təhsil, diplomların tanınması, universitetlərin idarə olunması, tələbə yataqxanaları, tələbələrin köçürülməsi kimi məsələlərin hüquqi bazasını yarada bilər.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Ali təhsil haqqında” qanun layihəsi Milli Məclis tərəfindən hazırlanıb və bir neçə dəfə iclaslarda müzakirəyə çıxarılıb. Amma hələ də qəbulu yubanır. Parlamentin payız sessiyasında bu qanunun qəbulunun prioritet məsələlərdən biri olması gözlənilir. Layihə Milli Məclisin Elm və təhsil komitəsinin 2024-cü il yaz sessiyasının qanunvericilik işləri planına da daxil edilmişdi. Lakin layihənin müzakirəyə çıxarılması alınmadı. Layihə işçi qrupunun iştirakı ilə parlamentin Elm və təhsil komitəsində dəfələrlə müzakirə edilib, lakin plenar iclasda müzakirəsi gerçəkləşməyib. Layihə artıq beşinci sessiyadır ki, işlər planına salınır, amma plenar iclasın müzakirəsinə çıxarılmır.

Qeyd edək ki, ölkəmizdə “Təhsil haqqında” qanun qəbul olunub. İndi isə ayrıca “Ali təhsil haqqında” qanun layihəsinin qəbulu planlaşdırılır.

Bəs yeni qanun layihəsi təhsil sistemində hansı yenilikləri özündə əks etdirir?

### “NAZİRLİK BU PROSESDƏ FƏAL OLMALIDIR”

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov “Ali təhsil haqqında” qanunun qəbul edilməsinə ciddi ehtiyac olduğunu bildirir: “Ali təhsil haqqında” qanunda bir çox mühüm məsələlər öz əksini tapıb. Bu qanun Azərbaycanda ali təhsili tənzimləyəcək. Düzdür, “Təhsil haqqında” qanunumuz var, amma “Ali təhsil haqqında” ayrıca bir qanun yoxdur. Bu qanunun qəbul edilməsi ali təhsil müəssisələri üçün də olduqca önəmlidir. Bu gün təhsildə bir sıra çağırışlar var ki, onların yerinə yetirilməsi üçün bu qanuna ehtiyac var”. Millət vəkilinin sözlərinə görə, sənəddə distant təhsil, xarici diplomların tanınması, universitetlərin idarə olunması, tələbə yataqxanaları, tələbələrin köçürülməsinin yeni qaydaları, doktorantura pilləsinin ikili səviyyədən bir səviyyəyə endirilməsi və s. məsələlər yer alıb. C.Məmmədov bildirir ki, adətən qanunlar qəbul edilərkən mərkəzi icra orqanlarının rəy və yanaşmaları nəzərə alınır: “Hesab edirəm ki, hazırkı mərhələdə qanunun qəbul edilməsi Elm və Təhsil Nazirliyindən asılıdır. Nazirlik bu prosesdə fəal olmalıdır. Yəni burada məsələ təkcə Milli Məclisdən asılı deyil, həm də digər strukturlardan asılı olan məsələlər var”.

### ZAMAN, TƏLƏBAT VƏ ŞƏRAİT DƏYİŞDİKCƏ...

Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlının fikrincə, zaman, tələbat və şərait dəyişdikcə qanunlar da dəyişir: “Ya yeni maddələr əlavə olunur, ya da dəyişikliklər edirlər. Yəqin ki, yeni dövrə uyğun dəyişikliklərə ehtiyac var”. H.İsaxanlı bildirir ki, ali təhsil sistemi ilə orta təhsil sistemi arasında kəskin fərqlər mövcuddur. Bu baxımdan, ali təhsilin ayrıca xüsusiyyətləri olduğundan, onun ayrıca qanununun olmasının heç bir ziyanı yoxdur: “Bunlar başqa səviyyələr, ayrı-ayrı problemlərdir. Hər cəhətdən fərqlər çoxdur. Ona görə də “Ali təhsil haqqında” ayrıca qanunun olması yaxşı olardı”.

### “Süni əngəllər də aradan qalxacaq”

Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru Rüstəm Kamal isə hesab edir ki, qəbulu gözlənilən qanun təhsilin mərhələlərini, təhsilalma formalarını qaydaya salacaq və artıq bu çərçivədən kənara çıxmaq olmayacaq: “Təhsil hər bir ölkənin prioritet sahəsidir. Elə bir ailə yoxdur ki, bu və ya digər dərəcədə təhsillə bağlı olmasın. Ölkənin Konstitusiyasından sonra bu qanun ikinci vacib sənəddir. Təhsil sistem içində sistemdir. Bu sistemlərin ahəngdar işləməsi üçün vacib olan isə qanundur”. Professor hesab edir ki, bizim dünya təhsil sisteminə inteqrasiya olunmağımız üçün “Ali təhsil haqqında” qanunda dünya təhsil sistemində baş verən müsbət hadisələr, yerli, milli xüsusiyyətlər nəzərə alınacaq”.

Professorun fikrincə, qanun layihəsi çap edilib ictimai müzakirəyə də verilməlidir ki, müəllimlər, ictimaiyyət nümayəndələri də onunla tanış olsunlar: “Bu qanunun qəbulunun vaxtı çatıb. Fikrimcə, bu sənəd təhsilimizdə ortaya çıxan süni əngəlləri də aradan götürə bilər. Çünki ortada qanun olarsa, bu, bir çox məsələlərdə redaktə işlərini sürətləndirəcək”.



Rüstəm Kamal

### “Proses hələ xeyli davam edə bilər”

Dosent İlham Əhmədov da Milli Məclisdə “Ali təhsil haqqında qanun” layihəsi üzərində 4 ildir ki, işlərin davam etdiyini bildirir: “İndi bu işə yenidən start veriləcək. Bu halda proses hələ xeyli davam edə bilər”. Ekspert bildirir ki, bizdə hazırda “Təhsil haqqında qanun” və digər normativ sənədlər var: “Onlara doğru-düzgün əməl edilsə, mövcud problemlərin çoxu həll edilə bilərdi. Amma, əksinə, problemlər ilbəil artdı. Bu gün də təhsildə olan bir çox problemlər, baş verən bəzi proseslər “Təhsil haqqında qanun”la uzlaşmır. Gec-tez “Ali təhsil haqqında qanun” da qəbul ediləcək, amma bu gedişlə ali təhsildəki problemlərimiz tezliklə öz həllini tapmayacaq”. İ.Əhmədov hesab edir ki, qanundan əvvəl və ya paralel olaraq ali təhsilə dair yol xəritəsi, inkişaf strategiyaları qəbul edilməlidir: “Hələ də ali təhsilə dair normal strategiyamız yoxdur. Son 15 ildə ali təhsilə dair cəmi bir strategiya qəbul edilib. Bu, 2009-2013-cü illər üzrə olan sənəddir. Onun da icrası yarımçıq oldu. Bizdə belə təsəvvür var ki, intizarla gözlənilən hansısa qanun qəbul edilən kimi, bu sahənin bütün problemləri avtomatik həll ediləcək. Sahənin inkişafı üçün mükəmməl qanunvericilik aktlarının olması zəruridir, lakin bu, kafi deyil. Əlavə digər məsələlər də həll edilməlidir”.



Ceyhun Məmmədov



Hamlet İsaxanlı





İlham Əhmədov

Foto: Rüfət Mikayılov/Global Photostock

# HİNDİSTAN DAXİLDƏN QAYNAYIR

Hindistanda daxili vəziyyət gərginləşib. Söhbət həssas bölgə sayılan Ladakdan gedir. Muxtariyyət uğrunda mübarizə qrupunun ən tanınmış fəalı Çerinq Dorcey toqquşmalarda beş nəfərin öldüyünü və ən azı 70 nəfərin yaralandığını bildirib.



AZƏR NURİYEV

Himalayda yerləşən, azsaylı əhalisi olan Hindistanın Ladak bölgəsi yeni gərginlik mərkəzinə çevrilib. Qonşu dövlətlər - Pakistan və Çin də bu münaqişəyə cəlb oluna bilər. Bölgədə dəfələrlə problem yaşanıb. Sonuncu dəfə bu ərazi 2020-ci ildə - Hindistan və Çin əsgərlərinin qüvvələrini sınadığı yer kimi yadda qalıb. Odlu silahlardan istifadə edilməsə də, hər iki tərəfdən ölənlər olmuşdu. Ladakdakı indiki gərginliyə səbəb Hindistan və Çin arasında sərhəd mübahisəsi olmasa da, kənardan müdaxilələr istisna edilmir. Bu dəfə yerli sakinləri qəzəbləndirən regiona Hindistan ştatı statusu verilməməsidir.

### ETİRAZLARA SƏBƏB OLAN QƏRAR

Məsələ ondadır ki, Hindistanın Baş naziri Narendra Modi Ladakın birbaşa mərkəzi hakimiyyətə tabe olan birlik ərazisinə çevirən islahat keçirib. "The New York Times" qəzetinin məlumatına görə, regionun bir çox sakinləri Hindistan tərəfindən onların bölgəsinə sərt nəzarət qurulmasından böyük məyusluq yaşayırlar. Narazılıq uzun müddət yığılıb və iğtişaşlara çevrilib. Minlərlə insan bu günlərdə bölgənin mərkəzi şəhəri Lehdə Ladaka ştat statusunun verilməsini tələb edərək etiraz nümayişinə çıxıb. "Aclıq aksiyası elan edən fəallar etirazçıların hisslərini daha da alovlandırıblar. Ladakda aclıq aksiyasında iştirak edənlərin hazırlığı yox idi, onları həkimlərə təhvil verib xilas etmək lazım gəlib. Bu da etirazlara təkan olub. Nümayişçilər polis ilə toqquşub, Baş nazir Modinin partiyası olan Bharatiya Janata Partiyasının ofisi yandırılıb", - məlumatda bildirilir. Hindistanın Daxili İşlər Nazirliyinin məlumatına görə, iğtişaşlar nəticəsində 30-dan çox insan yaralandığından polis özünümüdafiə məqsədilə atəş açmağa məcbur qalıb. Nəticədə ölənlər olub: DİN konkret rəqəm verməyib. Belə hallarda adətən olduğu kimi, hakimiyyət və müxalifət nümayəndələri günahı bir-birinin üstünə atırlar.




### NEPALDA BAŞ VERMİŞ SON HADİSƏLƏRİN SSENARİSİ?

Muxtariyyət uğrunda mübarizə qrupunun fəalı Çerinq Dorcey beş nəfərin öldüyünü, ən azı 70 nəfərin yaralandığını bildirib. Ladak bölgəsinin qubernatoru Kavinder Qupta yerli etirazları Nepal və Banqladeşdəki gənclərin üsyanları ilə müqayisə edənləri zorakılığı qızışdırmaqda günahlandırır. "Əgər onlar dayandırılmasaydı, bütün şəhəri yandırardılar", - o iddia edir. Dorcey zorakılıq istəmədiyini söyləyərək özünü müdafiə edir. O etiraf edir ki, muxtariyyət uğrunda hərəkatın gənclər qolunun üzvləri polislərə daş atmağa başlayıb, bir neçə evi zədələyiblər. Dorceyin sözlərinə görə, bu, muxtariyyətçilər kütlə üzərində nəzarəti itirdiyi zaman baş verib. Hindistan federal hökumətinin bəyanatında vəziyyət fərqli şəkildə təsvir edilir: "Etiraz təşkilatçıları əvvəldən "Ərəb baharı" və ya Nepalda baş vermiş son hadisələrin ssenarisi ilə inqilab etmək məqsədilə zorakılığa meyillənmişdilər".



### ƏRAZİYƏ PAKİSTAN DA İDDİALIDIR

Ölkə hakimiyyətini narahat edən digər məsələ isə Ladak muxtariyyəti uğrunda mübarizə aparan fəalların etirazları Hindistanın paytaxtına köçürmək planlarıdır. Onlar oktyabrın 6-da Nyu-Delidə, hökumət idarələrinin ofisləri qarşısında aclıq aksiyası keçirməyi planlaşdırırlar. Ladakdan olanların bütün Hindistanı əhatə edən inqilab təşkil edəcəkləri ilə bağlı narahatlıqlar şişirdilmiş görünsə də, onların səbəbindən Kəşmirdəki vəziyyətin kəskinləşəcəyi təhlükəsi tamamilə real görünür. Əsasən buddistlər və müsəlmanlar tərəfindən məskunlaşmış Ladak təkcə Hindistan və Çin arasında deyil, həm də Hindistan və Pakistan arasında qarşıdurma məkanı olub. 1999-cu ildə bilavasitə Ladak dağlarında, Karqil adlanan qərb hissəsində aviasiya və zirehli texnika istifadə etməklə təxminən min nəfərin həyatını itirdiyi, bəzən "Karqil müharibəsi" adlandırılan ciddi döyüşlər təxminən bir ay davam edib.



### PAKİSTAN-SƏUDİYYƏ, HİNDİSTAN-RUSİYA ƏMƏKDAŞLIĞI

Ladak gərginliyinin yeni Pakistan-Hindistan qarşıdurmasına yol açacağına dair ehtimallar da var. Ən azından Hindistan Pakistanla gərginlikdə maraqlı görünür. Sürətlə silahlanmağa doğru irəliləyir - Rusiyadan əlavə S-400 "Triumf" və ya yeni nəsil S-500 "Prometey" sistemləri almaqla öz hava hücumundan müdafiəsini genişləndirməyi düşünür. Bu barədə "Print" qəzeti Hindistan hökumətindəki mənbələrə istinadən məlumat yayıb.

Belə getsə, ABŞ Prezidenti Donald Trampın Pakistan-Hindistan münaqişəsinin nizamlanması üzrə səyləri nəticəsiz qala bilər. Pakistan da Hindistanın sürətli silahlanması fonunda sakit durmaq istəmir. Pakistanın baş naziri Şahbaz Şərif və Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman Ər-Riyadda "Strateji Qarşılıqlı Müdafiə Sazişi"ni imzalayıb. Əvvəlki razılaşmalara əlavə olaraq, iki ölkənin indi kollektiv müdafiə, bəlkə də nüvə komponenti də daxil olmaqla, öhdəliyi var.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

YENİ TİKİLƏN, ƏSASLI TƏMİR OLUNAN BİNALARDAKI MƏNZİLLƏRİN ENERJİ PASPORTU OLACAQ

# AZ XƏRC, ÇOX İSTİLİK

Enerji pasportu binanın enerji səmərəliliyi şəhadətnaməsidir. Yeni tikililərdə bu sənəd olmadan istismara icazə verilməyəcək. Reytinqi yüksək olan evlər həm daha az enerji xərcləyəcək, həm də bazarda daha baha satılacaq.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda yeni tikilən, yenidən qurulan, əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binaları enerji effektivliyi üzrə məcburi pasportlaşdırılacaq. Bu, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanuna təklif edilən yeni - 17.3-cü maddədə əksini tapıb.

### "ƏN BÖYÜK PAYA MALİK EV TƏSƏRRÜFATLARIDIR"

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Rövşən Muradovun sözlərinə görə, hazırda enerji sərfiyyatının böyük həcmi yaşayış binalarının üzərinə düşür: "Enerji səmərəliliyi hazırda ən aktual problemdir. Sənayenin inkişafı, insanların gündəlik həyatında olan tələbatları enerji istehlakını hər gün artırır. Əvvəlki kimi bir mənzildə bir televizor, soyuducu olan dövr deyil. Bu səbəblərdən də ənənəvi enerji mənbələri sürətlə tükənir. İstehlak olunan enerjiyə nəzarət etmək, eyni zamanda ekosistemə dəyən zərəri minimuma endirmək üçün enerjiyə qənaət etməliyik. Yüksək sıxlıqlı yaşayışın olduğu şəhərlərdə binalarda enerji istehlakı istixana qazı emissiyalarının yaranmasına səbəb olur. Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, binaların istismarı zamanı istehlak olunan enerji ümumi istehlakın 30 faizinə bərabərdir. Enerji əsaslı karbon emissiyası 26 faiz təşkil edir. Buraya binanın istismarı zamanı istifadə olunan elektrik və istilik enerjisinin istehsalından yaranan emissiyalar da aiddir. Ölkəmizdə də enerji istehlakında ən böyük paya malik ev təsərrüfatlarıdır. Ən çox istehlak olunan enerji resursu təbii qazdır".



Rövşən Muradov

### "ENERJİ SƏMƏRƏLİLİYİ TƏLƏB KİMİ QOYULACAQ"

Millət vəkili bildirdi ki, bundan sonra inşa olunacaq binalarda enerji səmərəliliyi tələb kimi qoyulacaq: "Binada enerji effektivliyini təmin etmək üçün layihələndirmə zamanı istehlak göstəricisini hesablamaq lazımdır. Bina tikilmədən öncə hesablamalar nəticəsində enerjiyə qənaət etmək, karbon emissiyasını minimuma endirmək mümkündür. Tarixi mədəniyyət abidələrində bunu etmək olmaz, çünki onlar toxunulmazdır. Köhnə binalarda da mümkün deyil, çünki infrastruktur artıq var və onu sökmək mümkün deyil. Utilizasiyaya gedən binalarda isə yenisi tikiləndə bütün bunlar nəzərə alınacaq. Dövlətin tikdiyi binalarda enerji effektivliyinə riayət olunur. Amma özəl şirkətlərin tikdiyi binalar da artıq qanun qəbulundan sonra standartlara cavab verməlidir. Bu, tələb kimi tikilən binaların qarşısına qoyulacaq. Enerji effektivliyi materiala, kommunikasiya sistemlərinə bağlıdır. Yaşayış olan binalarda da insanlar buna maraq göstərsələr, idarəedicilərinə müraciət edərək kommunikasiya xətlərini dəyişə, binanın fasadını izolyasiya edə bilərlər".

## ENERJİ PASPORTU NECƏ VERİLƏCƏK?

Deputat R.Muradov enerji pasportunun necə veriləcəyinə də aydınlıq gətirdi: "Binanın enerji effektivliyini də müəyyən edən enerji pasportudur. Bu pasport həmin binanın enerji, eyni zamanda istilik texnikasının müvafiq normalarla təyin edilmiş göstəricilərin uyğunluğunu təsdiq edən sənəddir. Pasportlaşdırma enerji effektivliyini izləməyə, həm də ölkə üzrə enerji səmərəliliyi strategiyası və ona uyğun tədbirlərin müəyyən edilməsinə kömək edəcək. Binanın mülkiyyətçisi və idarəçisinin müraciəti əsasında enerji effektivliyi pasportu təqdim olunur. Pasportda həmin binada enerji effektivliyinin təmin olunması, orada görülən işlər hər biri öz əksini tapacaq".

### "DÜNYA ÖLKƏLƏRİNDƏ İLLƏRDİR MÖVCUDDUR"

Deputatın fikrincə, enerji pasportu dünya ölkələrində illərdir mövcuddur və xeyli səmərəlidir: "Beynəlxalq təcrübədə bunun iqtisadi xərci olduqca aşağıdır. Pasportlaşdırma qiymətləri bina tipi və sahəsinə əsasən müəyyən edilir. Əgər sahə böyükdürsə, hər kvadrat metrə düşən qiymət aşağı olur. Böyük Britaniyada kvadratmetr artdıqca qiymət aşağı düşür. 100 kvadrat metrə qədər olan evlərdə pasportlaşma qiyməti 10,1 manatdır. 1000 kvadrat metrdə isə 1,32 manatdır. Türkiyədə isə 600 kvadratmetrə qədər olan sahə 1500 lirədir. Pasportlaşmaya çəkilən xərclər itirilmir. Qiymətlərin aşağı olması nəticəsində istismarda olan bina sakinlərində də pasport əldə etməyə maraq yaranacaq. Enerji effektivliyinə çəkilən xərclər 5-7 ilə geri qayıdacaq".




## "EVİ NƏ QƏDƏR QIZDIRMAĞA ÇALIŞSANIZ DA, SOYUYUR"

R.Muradov enerji pasportu və enerji səmərəliliyinin vətəndaşlar üçün yaradacağı imkanlardan da bəhs etdi: "Binalar bəzən tikilir, lakin düzgün izolyasiya edilmir. Yaxud beton üzərindən döşəmə vurulur, alçipan olur və məsafə qalmır ki, evdə olan enerji istiliyi saxlasın. Divar qalınlığı 40 santimetr olmayan evlərdə enerji səmərəliliyi zəifdir. Evi nə qədər qızdırmağa çalışsanız da, soyuyur. İzolyasiya tədbirləri nəticəsində enerji istehlakını 50 faizə qədər azaltmaq mümkündür. Yəni vətəndaşlar qışda kombi işlətdiyi üçün qaza 100 manat ödəyirsə, artıq 50 manat ödəyəcək. Nəzərə almalıyıq ki, enerjinin də qiyməti ildən-ilə artır. Köhnə binaların əksəriyyətinin enerji effektivliyi çox aşağı səviyyədədir. 1 kvadratmetr ərazinin qızdırılmasına 250 kilovat/saat enerji sərf edilir. Az xərc çəkməklə daha yaxşı istilik əldə etmək mümkün olacaq. Binaların enerji effektivliyi üzrə pasportlaşdırılması gələcəkdə vətəndaşlarımızın həm sağlamlığının, həm həyat keyfiyyətinin yaxşılaşmasına, eyni zamanda enerjiyə qənaətə, karbon qazının emissiyasının azaldılması nəticəsində iqtisadiyyatımıza töhfə verəcək".

## YENİ TƏLƏBDƏN SONRA ƏMLAK QİYMƏTLƏRİ ARTACAQ

İqtisadçı Xalid Kərimli isə düşünür ki, enerji pasportlaşmasından sonra əmlak qiymətləri arta bilər: "Enerji pasportu obyektin, evin enerji sərfiyyatını müəyyən edəcək. Enerji itkisini hesablamaq mümkün olacaq. Enerji itkisi daha az olanlara daha yüksək reytinq veriləcək. Avropada 20 ildən artıqdır pasportlaşma mövcuddur. Bizdə isə zərurəti ortaya çıxaran köhnə binalardır. Onlarda enerji itkisi çox olur. Binalarda istifadə olunan material, pəncərələrin kiplənməsi kimi məsələlər xeyli zəifdir. O səbəbdən bu binalarda enerji itkisi olur. Azərbaycan enerji istehlakının 40 faizə yaxını məhz binalardadır. Pasportlaşmanın dövlət büdcəsinə də faydaları olacaq. Enerji xərcləri azalacaq. Enerji pasportları əmlak bazarına da müsbət təsir göstərə bilər. Enerji pasportunda yüksək reytinq olduqda qiyməti də yüksələcək. Çünki insanların evi isitmək üçün xərci az çıxacaq".



Xalid Kərimli

# ÖLKƏDƏ YAYILAN VİRUS TƏHLÜKƏLİDİRMİ?

**Havaların soyuması ilə əlaqədar hər il qrip və digər kəskin respirator virus infeksiyalarına yoluxma hallarında artımlar qeydə alınır. Bu il də istisna deyil. Son günlər ölkə ərazisində müxtəlif infeksion xəstəliklərin artması müşahidə olunur.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Son günlər ölkə ərazisində müxtəlif infeksion xəstəliklərin artması müşahidə olunur. Yaşından asılı olmayaraq, bir çox insan müxtəlif viruslarla mübarizə aparır. Virusa yoluxanlar əsasən, yüksək hərarət, davamlı öskürək, boğaz ağrısı kimi əlamətlərdən şikayətlənirlər. Eyni zamanda, cəmiyyətdə COVID-19-un yenidən yayılması ilə bağlı narahatlıqlar və müzakirələr də gündəmdədir.

Bəs, əslində nə baş verir? Hazırda yayılan virus nə dərəcədə təhlükəlidir və proses nəzarət altındadırmı?

### "BU İL DƏ EYNİ MƏNZƏRƏ İLƏ ÜZLƏŞƏCƏYİK"

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, hazırda ölkədə epidemioloji durum sabitdir: "Havaların soyuması və payız-qış mövsümünün başlanması ilə əlaqədar hər il qrip və digər kəskin respirator virus infeksiyalarına yoluxma hallarında artımlar müşahidə olunur. Bu adi haldır və bu il də eyni mənzərə ilə üzləşəcəyik. Hazırda ölkədə epidemioloji durum sabitdir, kəskin respirator virus infeksiyalarına yoluxma hallarının keçən ilin eyni dövrü ilə müqayisədə artmadığını qeyd edə bilərik".

### YENİ KORONAVİRUSA YOLUXMA VAR?

Əhali arasında COVID-19-la bağlı müzakirələrə gəldikdə isə, mütəxəssis deyir ki, klinik seyrə görə KRVİ və COVID-19 çox oxşar olduğu üçün bunları biri-birindən ayırmaq mümkün deyil: "COVID-19 xəstəliyinin təsdiqlənməsi üçün şəxsin müayinədən keçməsi tələb olunur. Hazırda Yeni koronavirus infeksiyasına yoluxma sayında artımlar qeyd olunmur".

## Həm böyüklər, həm də uşaqlar...

**İnfeksionist Mərdan Əliyev bildirir ki, payız-qış mövsümündə kəskin respirator virus, qripəbənzər, yuxarı tənəffüs yolları infeksiyalarına həm uşaqlarda, həm də böyüklərdə tez-tez rast gəlinir. Onun sözlərinə görə, məhz bu dövrdə bir sıra viruslar aktivləşir: "Onların arasında rinovirus, adenovirus, rotavirus (xüsusilə uşaqlarda bu virus həm də bağırsaq infeksiyalarına səbəb olur), influenza (qrip), noravirus və koronaviruslar əsas yer tutur. Sözügedən viruslar əksər hallarda yuxarı tənəffüs yolları xəstəliklərinə yol açır".**

## "Dünyada COVID-19-un yeni ştamına yoluxmalar artıb"

**COVID-19-la ilə bağlı məsələyə gəlincə, mütəxəssis vurğulayır ki, dünyada, COVID-19-un yeni ştamlarına yoluxmalar artıb: "Bu ştamların simptomları əvvəlkilərdən fərqlənmir. Demək olar ki, qrip əlamətləri ilə eynidir. Ona görə də bu virusu digərlərindən fərqləndirmək çətindir. Azərbaycanda da yoluxma hallarında artım müşahidə oluna bilər. Lakin hazırda konkret diaqnostika aparılmadığı üçün yoluxmanın hansı virusa aid olduğunu dəqiq müəyyən etmək mümkün deyil. Buna ciddi ehtiyac da yoxdur, çünki simptomlar bir-birinə oxşardır və tətbiq olunan müalicə protokolları demək olar ki, eynidir".**

**Həkim bildirir ki, hazırda ona müraciət edən xəstələrin sayında artım var: "Bu da gözləniləndir, çünki hər il olduğu kimi, payız-qış mövsümündə infeksion xəstəliklərə yoluxma halları artır və bu, təbii proses sayılır".**

### "QRİPƏ QARŞI VAKSİNASİYA CİDDİ TÖVSİYƏ OLUNUR"

Mütəxəssis vurğulayır ki, ötən ay mövsümi qripə yoluxma hallarında artım müşahidə olunmayıb: "Əhali arasında ümumi və respirator əlamətlərlə müşahidə edilən xəstəlik kəskin respirator virus infeksiyalarıdır (KRVİ). Hava-damcı üsulu ilə yayılan bütün KRVİ-dan qorunma üsulu universaldır. Bundan başqa, xəstələnmiş insanların aktiv aşkarlanması və kollektivdən müvəqqəti kənarlaşdırılması, otaqların tez-tez havalandırılması, qapalı məkanlarda toplanmış insanlar arasında xəstələnmə halları olduqda maskadan istifadə olunması, əl gigiyenasına riayət olunması mütləqdir. Bundan əlavə, sağlam həyat tərzi, düzgün qidalanma və açıq havada fiziki aktivliyi gözləməklə immuniteti yüksək səviyyədə saxlamaq, habelə dəyişkən havalarda düzgün geyim seçimi etmək yoluxma hallarının azalmasında önəm daşıyır. Risk qruplarına daxil olan insanların birinci növbədə qripə qarşı vaksinasiyası ciddi tövsiyə olunur".



Təyyar Eyvazov

### Yuxu rejimi, istirahət, balanslı qidalanma

Mütəxəssis vurğulayır ki, ev şəraitində infeksion xəstəliklərin qarşısını almaq üçün immun sistemini güclü saxlamaq tövsiyə olunur: "Təbii C vitamini ilə zəngin meyvə və tərəvəzlər, kivi, portağal, limon, qırmızı bibər və s. immun sistemini dəstəkləyir və yoluxma halında xəstəliyin daha yüngül keçməsinə kömək edir. D vitamini isə yalnız həkim məsləhəti ilə qəbul edilməlidir. Yuxu rejimi, düzgün istirahət və balanslı qidalanma da vacib amillərdəndir".

Əgər artıq xəstələnmişiksə, evdə qalmaq və işə getməmək tövsiyə olunur. Bu, həm ətrafdakı insanları yoluxdurmamaq, həm də xəstəliyin ağırlaşmasının qarşısını almaq baxımından vacibdir: " Ev şəraitində istirahət, bol maye qəbulu, C vitamini ilə dəstək və bədənin soyuqdan qorunması xəstəliyin daha yüngül və rahat keçməsinə şərait yaradır".

## "Stratus", "Nimbus"...

Məlumat üçün bildirək ki, 2025-ci ilin ortalarından etibarən dünyada COVID-19-un yeni ştamları yayılmağa başlayıb. Bu yeni variantlar əsasən "Stratus", "Nimbus" adları ilə tanınır və müxtəlif ölkələrdə yoluxma hallarının artmasına səbəb olub. "Stratus" adlı yeni ştam ilk dəfə Böyük Britaniyada aşkarlanıb və XFG.3 subvariantı ilə tanınır. Bu ştam "Omikron" ştamının nəslindəndir və əvvəlki variantlardan daha yoluxucu ola bilər. "Nimbus" adlı yeni ştam isə ilk dəfə 2025-ci ilin yazında Böyük Britaniyada aşkarlanıb və artıq Hindistan, ABŞ və digər ölkələrdə də yayılıb. Bu variantın əsas simptomları kəskin boğaz ağrısı, şiddətli zəiflik, temperaturun yüksəlməsi və titrəmədir. Ümumdünya Səhiyyə Təşkilatı bu variantı əvvəlki ştamlarla müqayisədə daha ağır hesab etmir, lakin vəziyyəti izləməyə davam edir.



Mərdan Əliyev

Bu yeni ştamların yayılması, xüsusilə payız-qış mövsümündə respirator virusların artması ilə üst-üstə düşür. Bu səbəbdən, mütəxəssislər şəxsi gigiyena qaydalarına riayət etmək, immunitet sistemini gücləndirmək və xəstəlik simptomları müşahidə edildikdə evdə qalmağı tövsiyə edirlər.

# RƏQƏMSAL SAVADLI NƏSLİN YETİŞMƏSİNƏ CİDDİ MANEƏ

Ölkədə informatika müəllimi çatışmazlığı var. Ekspertlər hesab edirlər ki, informatika müəllimlərinin azlığı və marker çatışmazlığı ciddi problemdir. Bu problem təkcə təhsil sisteminə deyil, bütövlükdə ölkənin texnoloji inkişafına da təsir göstərə bilər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




Son illərdə rəqəmsallaşma və texnologiyaların sürətli inkişafı fonunda informatika fənninin tədrisi ön plana çıxıb. Lakin bu sahədə kadr çatışmazlığı, marker müəllim azlığı və digər sistemli problemlər var.

Dövlət İmtahan Mərkəzinin (DİM) sədri Məleykə Abbaszadə də bu yaxınlarda mətbuata açıqlamasında informatika müəllimlərinin azlığından və bu fənn üzrə marker-müəllimlərin kəskin çatışmazlığından şikayətləndi: “Biz təcrübəli marker-müəllim tapa bilmirik”.

Nəzərə alsaq ki, DİM-in qərarına əsasən, 2023-cü ildən bəri I qrup üzrə informatika yönümlü (Rİ altqrupuna daxil olan) ixtisasların müsabiqəsində iştirak etmək istəyən abituriyentlər imtahanın II mərhələsində riyaziyyat və fizika fənləri ilə yanaşı, informatika fənnindən də imtahan verirlər, onda fənnin bu gün üçün əhəmiyyəti daha çox anlaşılar.

Bəs informatika müəllimlərinin çatışmamasında səbəb nədir? Problemi necə həll eləmək olar?

### “ÖLKƏMİZDƏ MARKER OLA BİLƏCƏK MÜƏLLİMLƏR AZ DEYİL”

Etibar Cəfərov adına 118 saylı tam orta məktəbin informatika müəllimi, Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının (AGMA) nəzdində fəaliyyət göstərən Gənc İnformatika Müəllimləri Birliyinin sədri Pərvanə Çopsiyevanın fikrincə, informatika müəllimlərinin çatışmazlığı və informatika üzrə marker müəllimlərin sayının azlığı təkcə texniki bir çatışmazlıq deyil, illərlə bu fənnə qarşı formalaşmış sistemli yanaşmanın nəticəsidir: “Dünyanın bir çox inkişaf etmiş ölkəsində innovasiya və texnoloji tərəqqinin təməli kimi tanınan informatika uzun illər Azərbaycan təhsilində ikinci planda qalmışdı. Bu vəziyyətin əsas səbəblərindən biri İT ixtisasını seçən abituriyentlərin ali məktəblərə qəbul zamanı informatika fənnindən imtahan verməmələri idi. Bu problemi qismən aradan qaldıran önəmli addımlardan biri I ixtisas qrupu üzrə qəbul imtahanlarına informatika fənninin əlavə olunması oldu. Bu qərar həm bu sahəyə marağı olan şagirdlərin ixtisasa yönəlməsinə şərait yaratdı, həm də informatikanın təhsil sistemindəki önəmini artırdı”. P.Çopsiyevanın fikrincə, imtahanları illərdir təşkil olunan fənlərlə müqayisədə informatika fənni hələ yeni-yeni dirçəlir”: “Lakin əminliklə bildirirəm ki, ölkəmizdə bu fənn üzrə kifayət qədər ixtisaslaşmış, işinin peşəkarı olan müəllimlər var. Bunun əyani sübutu informatika müəllimlərinin təhsilverənlərin sertifikatlaşdırılması prosesində göstərdikləri yüksək nəticələrdir. Bu statistika göstərir ki, ölkəmizdə marker ola biləcək müəllimlər az deyil. Sadəcə, onların müəyyən edilməsi və hazırlığı istiqamətində sistemli yanaşmaya ehtiyac var. Hesab edirəm ki, regionlarda fəaliyyət göstərən istedadlı müəllimləri bu prosesə cəlb etmək və onları mərkəzlə əlaqələndirmək lazımdır”.


Pərvanə Çopsiyeva


Almaz Həsrət

### “YOXLAYICI PROQRAMLAR YARADILSIN”

İnformatikanın ən aktual və ən önəmli fənlərdən biri sayıldığını deyən Əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru Almaz Həsrətin fikrincə, elə informatika müəllimləri var ki, nəzəriyyəni əzbər bilsələr belə, praktik olaraq adi proqramda işləyə bilmirlər. Yəni praktik olaraq kompüterdə işləmək bacarıqları yoxdur: “Ali təhsil müəssisələrində ayrıca informatika ixtisaslı müəllim hazırlığındansa, bütün ixtisasların daxilində İKT məzmununu yüksək mənimsəmiş əsl informatika bilgili fənn müəllimlərin hazırlığına üstünlük verilməlidir. Ali təhsil müəssisələrində informatika müəllimliyi ixtisası adının yerində “müasir tədris texnologiyalar”ı ixtisası adı ilə fakültə olmalıdır”.

## Motivasiyanın yoxluğu

Şirvan şəhər Elçin İmanov adına 10 nömrəli tam orta məktəbin informatika müəllimi Çinarə Hüseynova bu sahədə müəllimlərin sayının az olmasını bir neçə amillə əlaqələndirir: “İlk səbəb peşəyə marağın aşağı olmasıdır. Müasir dövrdə informatika üzrə ixtisaslaşan gənclər əsasən özəl sektora - proqramlaşdırma, sistem inzibatçılığı, kibertəhlükəsizlik və digər sahələrə üz tuturlar. Bu istiqamətlər daha yüksək əməkhaqqı və peşəkar inkişaf imkanları təklif edir. Tədris mühitinin qeyri-cazibədarlığı da səbəblərdən biridir. Xüsusən region məktəblərində informatika kabinetləri ya yoxdur, ya da texniki baxımdan zəif təchiz olunub. Bu da müəllimlərin işləmək istəyini azaldır. Həmçinin motivasiya problemi var: müəllim maaşlarının nisbətən aşağı olması, ixtisasartırma və peşəkar inkişaf imkanlarının məhdudluğu sahəyə marağın azalmasına səbəb olur”. Ç.Hüseynova bildirir ki, DİM-in qeyd etdiyi marker müəllim problemi də bu sahədə daha dərin struktur problemlərin göstəricisidir. Belə ki, informatika fənni üzrə marker olmaq üçün yüksək fənn biliyindən əlavə, testin qiymətləndirilməsi qaydalarını dərindən bilmək və analitik düşüncə tələb olunur: “Lakin mövcud müəllim heyətinin əksəriyyəti yalnız nəzəri biliklərlə kifayətlənir və praktiki bacarıqları ya zəifdir, ya da təkmilləşdirilməyə ehtiyac duyur. Müasir proqramlaşdırma dilləri, alqoritmlər və süni intellekt kimi sahələrə dair dərs materialları ya köhnədir, ya da kifayət qədər tədris olunmur. Müəllimlərin ixtisasartırma ehtiyacları nəzərə alınmır, tədris proqramları və kurikulumlar reallığa uyğun deyil”.

Ç.Hüseynova hesab edir ki, mövcud vəziyyətdə müəllim maaşlarının artırılması və informatika müəllimlərinə xüsusi bonusların verilməsi, marker müəllimlər üçün intensiv təlim proqramlarının təşkili faydalı olardı.

Ç.Hüseynovanın fikrincə, informatika müəllimlərinin azlığı və marker çatışmazlığı ölkənin gələcəyini formalaşdıracaq rəqəmsal savadlı nəslin yetişməsi qarşısında ciddi bir maneədir: “Bu problem təkcə təhsil sisteminə deyil, bütövlükdə ölkənin texnoloji inkişafına da təsir göstərə bilər. Odur ki, bu sahədə islahatlar gecikdirilməməlidir”.


Çinarə Hüseynova

SON ZAMANLAR İDMAN ZALLARINDA ÜRƏK TUTMASINDAN BAŞ VERƏN ÖLÜM HALLARI ARTIR

# İDMAN ZALLARINDA GİZLİ RİSKLƏR

Elə insanlar var ki, 40 yaşına kimi heç vaxt idman etməyib. Amma birdən sağlam həyata keçid etmək istəyir və idmana başlayır. Bu zaman maksimal yüklənmə edir. Nəticədə qəfil ürək tutmaları və infarktlar baş verir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Sentyabrın 29-da Əməkdar artist Cabir İmanovun idman zalında ürək tutmasından dünyasını dəyişməsi kədərli fakt oldu. Ölüm faktının idman zalında baş verməsi suallar da doğurdu. Çünki bundan öncə də idman zallarında ürək tutmasından baş verən ölüm faktları olmuşdu. İstər-istəməz idman zamanı qəbul edilən dərmanların ölümə səbəb olması barədə ehtimallar gündəmə gəldi. Həqiqətən də, görəsən, idman zalları, istifadə edilən dərmanlar hansı hallarda ölümə səbəb ola bilərmi?

### "MÜAYİNƏ ZALIN YOX, ŞƏXSİN MƏSULİYYƏTİDİR"

Nutrisioloq, fəal idmanla məşğul olan Emil Allahverdiyev bildirdi ki, ürək tutmaları sadəcə idman zallarında deyil, hər yerdə ola bilər: "Bu, sükan arxasında, hətta yemək yeyərkən də mümkündür. İdman zalında olması o demək deyil ki, məhz idmanla bağlıdır. İnsan içki içirdimi, yağlı yeməklər yeyirdimi, nəslində infarktdan dünyasını dəyişənlər varmı, əsas bunlara diqqət etmək lazımdır".

Nutrisioloqun fikrincə, idmana başlamazdan əvvəl sağlamlıq müayinəsindən keçmək lazımdır: "Yaşın 40-ın üzərindədirsə, heç vaxt idmanla məşğul olmamısansa, idmana gedirsənsə, müayinə mütləqdir. Xroniki xəstəliklər varsa, həkimlə məsləhətləşmək lazımdır. Amma bunları zaldan tələb etmək doğru deyil. Bu, insanın şəxsi məsuliyyətidir".

### "QADAĞANDIR, AMMA İNSANLARA SATILIR"

E.Allahverdiyev idman zallarında təqdim edilən proteinlərin və qida əlavələrinin ürək problemlərinə heç bir təsiri olmadığı qənaətindədir: "İdmançılar stereoidlər istifadə edirlər. Onlar protein və ya qida əlavəsi deyil. Onlar insan ömrünü qısaldır. Bir çox stereoidlər qadağandır. Lakin bəzən gizli şəkildə alına bilir. Azərbaycanda bəzi preparatlar qadağandır. Amma zallarda bu dərmanlar təklif edilir. Məşqçilər idmanla məşğul olanlara sürətli nəticə almaq üçün preparat təklif edirlər. Məşqçilər bu dərmanların fəsadlarından da danışmalıdırlar. Deməlidir ki, nəticəyə tez çatsan da, ürəyində problemlər yaranacaq, təzyiqin qalxacaq, ömrün bir neçə il qısalacaq. Heyif ki, bir çox məşqçilər bunu etmir".

E.Allahverdiyevin fikrincə, idman zallarında çalışan məşqçilər tibbi yardım kursları keçməlidirlər.



Emil Allahverdiyev

### "BU XƏSTƏLƏR BİR DƏQİQƏ ƏRZİNDƏ HƏYATLARINI İTİRƏ BİLƏRLƏR"

Almaniyada fəaliyyət göstərən həkim-kardioloq Firudin Qurbanov da bildirdi ki, idman zallarında qəfil ürəktutmalarının bir çox səbəbi var: "Əsas risk qrupu yaşı 40-dan yuxarı olan insanlardır. Siqaret çəkənlər, artıq çəkisi olanlar, ailəsində ürək-damar xəstəliyi olanlar, şəkərli diabetdən və ya təzyiqdən əziyyət çəkənlər xüsusilə risk altındadırlar. Belə şəxslərin tac damarlarında problem ola bilər, amma gündəlik həyatda bunu hiss etməzlər. İdman zalında fiziki yüklənmə nəticəsində infarkt və ya qəfil ürək tutması baş verə bilər. Gizli ürək-damar xəstəliyi olan insanlar var. Bu, bəzən irsidir"

Həkim-kardioloq bildirdi ki, hipertrofik obstruktiv kardiomiopatiya zamanı ürək əzələsi qalınlaşır. Bu, gündəlik həyatda simptomsuz ola bilər, amma fiziki yüklənmə zamanı bədxassəli ritm pozğunluqları yarana və qəfil ölümlə nəticələnə bilər: "Bunu biz tez-tez gənc idmançılarda görürük - məşq və ya oyun zamanı qəflətən yıxılırlar və həyatlarını itirirlər".



## TƏCRÜBƏSİZLİYİN SƏBƏB OLDUĞU FƏSADLAR

F.Qurbanov yaşın yaratdığı risklərdən də bəhs etdi: "Elə insanlar var ki, 40 yaşına kimi heç vaxt idman etməyib. Amma birdən sağlam həyata keçid etmək istəyir, idmana başlayır. Maksimal yüklənmə edir. Bu, çox risklidir. Təcrübəsiz şəxslər isinmə hərəkətləri etmədən ağır çəkilərlə məşqə başlayırlar. Halbuki ürəyin maksimal yüklənmə həddi var: 220-dən insanın yaşını çıxırıq. Məsələn, 50 yaşında insan üçün maksimal nəbz 170-dən yuxarı olmamalıdır. İsinmə hərəkətləri və yüklənmənin mərhələli artırılması mütləqdir".

Kardioloqun fikrincə, stres və stimulyatorlar da təsir edə bilir: "Daim kofein və enerji içkilərindən istifadə ürək damarlarında spazm yaradır, ritm pozğunluqlarına səbəb ola bilir. Bu da qəfil ürək tutmalarını artıran amillərdəndir".

### "40 YAŞI KEÇMİŞ ŞƏXSLƏR ÜÇÜN MÜAYİNƏ MÜTLƏQDİR"

Müsahibimiz bildirdi ki, idmana başlamazdan əvvəl tibbi müayinələrdən keçmək mütləqdir: "Xüsusən 30-40 yaşdan sonra müayinələr vacibdir. EKQ ilə ürəyin ritminə baxmaq, gizli infarkt olub-olmadığını qiymətləndirmək lazımdır. Qan təzyiqi ölçülməlidir, çünki gizli hipertoniyaya çox rast gəlinir. Yüksək təzyiq idman zamanı aorta və ya beyin damarının yırtılmasına səbəb ola bilər. Qan analizləri ilə xolesterin, şəkər və lipidlər yoxlanmalıdır. Stres-test - qaçış və ya velosiped üzərində - ürəyin fiziki yüklənməyə reaksiyasını göstərir. Bu müayinələr əsasında həkim hansı idmanın və hansı intensivliyin uyğun olduğunu təyin edir".

Həkim idman zalında təklif edilən dərmanların orqanizmə təsirindən də danışdı: "Steroidlər bədənin həcminə uyğun olmayan dozada qəbul edilləndə çox zərərlidir. Tərkibində kofein, taurin olan stimulyatorlar dozanı aşdıqda ürək döyüntülərini sürətləndirir, qəfil ölümlərə gətirib çıxara bilir. Yağ yandırıcılar da təzyiqi qaldırır, ürək ritmini pozur. Protein tozları sağlam ürəyi və böyrəyi olan şəxslər üçün təhlükəsizdir, amma həddindən artıq qəbul böyrəklərə ziyan verir".

### "NƏFƏS ALMIRSA, ÜRƏK MASAJI EDİLMƏLİDİR"

F.Qurbanovun sözlərinə görə, idman zallarında ilkin tibbi yardımı bilən məşqçilər olmalıdır: "İlk növbədə təcili yardıma zəng edilməlidir. Sonra nəfəsin olub-olmadığı yoxlanmalıdır. Əgər şəxs nəfəs almırsa və huşsuzdursa, dərhal ürək masajına başlanmalıdır. Dəqiqədə 100-120 dəfə sinə kompressiyası aparılmalıdır. 30 kompressiyadan sonra iki dəfə süni nəfəs verilir. İdman zallarında mütləq defibrilyator olmalıdır. Təlim keçmiş işçilər bu cihazdan istifadə edərək təcili yardım gələnədək xəstənin həyatını xilas edə bilərlər".



Firudin Qurbanov

# SOCAR “UNİPER”LƏ ƏMƏKDAŞLIQ PROQRAMI İMZALAYIB



Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Almaniyanın “Uniper” şirkəti arasında 2025–2026-cı illəri əhatə edən Əməkdaşlıq Proqramı imzalanıb. “Report” bu barədə SOCAR-a istinadən xəbər verir. Məlumata görə, sənədə iki şirkət arasında Əlaqələndirmə Komitəsinin 9-cu iclasında imza atılıb.

İclasda şirkətin vitse-prezidenti Elşad Nəsirov, “Uniper SE”nin kommersiya üzrə direktoru Karsten Poppinga və Almaniyanın Azərbaycandakı səfiri Ralf Horlemannın çıxışları dinlənilib. Daha sonra SOCAR-ın vitse-prezidenti Ziba Mustafayeva əsas məruzə ilə çıxış edib.

Çıxışlarda SOCAR ilə “Uniper” şirkəti arasında uzunmüddətli və qarşılıqlı faydalı əməkdaşlığın uğurla davam etdirildiyi bildirilib, birgə həyata keçirilən layihələrin Avropa enerji təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıdığı qeyd olunub. Şirkətlər arasında müxtəlif istiqamətlərdə əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində görülən işlər xüsusi vurğulanıb.

Daha sonra SOCAR–Uniper əməkdaşlığı, Cənub Qaz Dəhlizi üzrə mövcud vəziyyət, Avropa enerji siyasəti və yeni tendensiyalar, enerji keçidi, dayanıqlılıq və dekarbonizasiya, şirkətlərin kommunikasiya və ictimaiyyətlə əlaqələr, kadr siyasəti barədə təqdimatlar edilib, mövzular əsasında fikir mübadiləsi aparılıb. İclasda, eyni zamanda kommunikasiya və korporativ sosial məsuliyyət sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyi qeyd olunub.

# FUTBOL ÜZRƏ DÜNYA ÇEMPİONATINA EV SAHİBLİYİ EDƏCƏYİK



Azərbaycan daha bir möhtəşəm beynəlxalq idman turnirinə ev sahibliyi edəcək. Bu dəfə ölkəmiz növbəti futbol bayramını yaşayacaq. Söhbət 2027-ci ildə keçiriləcək 20 yaşadək futbolçulardan ibarət milli komandalar arasında dünya çempionatından gedir.

Qeyd edək ki, oktyabrın 2-də FIFA-nın İcraiyyə Komitəsinin növbəti iclası keçirilib. İcraiyyə Komitəsinin qərarına əsasən, Azərbaycan və Özbəkistan 2027-ci ildə keçiriləcək 20 yaşadək futbolçulardan ibarət milli komandalar arasında dünya çempionatının final mərhələsinə birgə ev sahibliyi edəcəklər.

AFFA-nın yaydığı məlumatda qeyd edilir ki, bu tarixi nailiyyət Prezident İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin uğurlu idman siyasətinin, o cümlədən ölkələrimizdə futbolun inkişafına göstərdikləri diqqətin nəticəsidir.

FIFA prezidenti Canni İnfantino da “Instagram” hesabında Azərbaycan və Özbəkistanın dünya çempionatının final mərhələsinə birgə ev sahibliyi edəcəyi ilə bağlı paylaşım edib. O, paylaşımında yazıb ki, FIFA Şurasının seçimindən məmnundur. Bu tarixi turnir Avropa və Asiyanı birləşdirəcək, idmanımızın ən parlaq gənc istedadını nümayiş etdirəcək.

# “NAR” REGİONAL SATIŞ ŞƏBƏKƏSİNİ GENİŞLƏNDİRİR

Sərfəli xidmətləri və bölgələrə diqqəti ilə seçilən mobil operator “Nar” Salyan şəhərində yeni mağazasını istifadəyə verdi. Salyan şəhəri, Y.Qasımov küçəsi 7 ünvanında açılan yeni “Nar” mağazasında abunəçilərə müştəri xidmətləri, mobil nömrələrin satışı, mobil telefon və aksesuarların təqdim olunması kimi xidmətlər göstərilir.



Mobil operator bölgələrdə açılan hər yeni mağazanı təkcə satış və xidmət şəbəkəsinin genişləndirilməsi olaraq deyil, həm də sakinlərlə birbaşa əlaqə qurmaq imkanı olaraq dəyərləndirir. Bu dəfə də yerli əhali üçün açıq keçirilən tədbir zamanı, “Nar” rəhbərliyi mağazaya gələn müştərilərlə söhbət apararaq, onların istəklərini və gözləntilərini birbaşa özlərindən öyrəndi. Bu addım telekommunikasiya sahəsində ən sərfəli məhsulları yüksək keyfiyyətli xidmətlərlə təqdim etmək məqsədindən irəli gəlir və “Nar”ı regionlardakı müştərilərə daha yaxın edir.




# BAKCELL HƏDİYYƏLƏRLƏ BOL LOTEREYAYA BAŞLADI

İnnovasiya və sürət lideri Bakcell hədiyyələrlə bol süni intellekt əsaslı lotereyaya başladığını elan edir. 1 oktyabr – 31 dekabr tarixlərində keçiriləcək lotereyada Bakcell abunəçiləri hər gün “iPhone 17”, hər həftə “Zeekr 001” və sonda “Porsche Cayenne” avtomobili olmaqla, ümumilikdə 100-dən artıq prestijli hədiyyə qazanmaq imkanı əldə edirlər.

Abunəçilər Bakcell-in məhsul və xidmətlərindən istifadə edərkən avtomatik olaraq lotereyada iştirak şansı qazanırlar. Belə ki, Bakcell nömrəsinin mövcud balansından xərclənən hər 1 AZN istifadəçiyə 1 şans verir.

Eyni zamanda, nömrənin balansını artıran abunəçilərə əlavə şanslar da təqdim olunur. Balans 1 AZN – 4.99 AZN aralığında artırılan zaman abunəçilər hər 1 AZN üçün 1 şans, balans 5 AZN və ondan çox artırılan zaman isə hər 1 AZN üçün 2 şans qazanacaq. Məsələn, balans 7 AZN artırıldıqda iştirakçı 14 şans əldə edəcək.

Bundan əlavə, lotereyada abunəçilərin qalib olmaq şansını daha da artırmaq məqsədilə onlara xüsusi “Şans” paketləri təqdim olunur. Məsələn, 2 AZN-lik “Şans” paketinə 7 şans və 30 şəbəkədaxili danışıq dəqiqəsi daxildir. Hər bir “Şans” paketi ilə iştirakçılar əlavə şəbəkədaxili danışıq dəqiqələrindən də faydalana bilirlər.

Qazanılan hər şans barədə abunəçiyə SMS vasitəsilə məlumat göndərilir. Hər bir lotereya iştirakçısı ümumi mövcud şans sayını Bakcell mobil tətbiqi və lotereya layihəsinin rəsmi internet səhifəsində şəxsi kabineti vasitəsilə izləyə bilər.

Qeyd edək ki, bu layihə Azərbaycanda süni intellekt əsaslı platforma üzərində qurulan ilk genişmiqyaslı lotereyadır. Bakcell lotereya haqqında ətraflı məlumatı Bakcell-in rəsmi lotereya səhifəsindən əldə etmək mümkündür: lotereya.bakcell.com

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 2048
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

FƏRDİ EVLƏRDƏ "Wİ-Fİ" QURULARKƏN TƏHLÜKƏSİZLİK QAYDALARINA RİAYƏT EDİLMƏLİDİR

# EVİMİZDƏKİ "Wİ-Fİ" TƏHLÜKƏSİ



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Fərdi evlərdə və müəssisələrdə "Wi-Fi" şəbəkələrinin təhlükəsizliyinə ən böyük təhdidlər zəif şifrələrdir. Vətəndaşlar çox vaxt "123456" kimi sadə və asan təxmin edilə bilən şifrələrdən istifadə edirlər. Digər risklər isə köhnə şifrələmə protokollarından istifadə, routerlərin proqram təminatının yenilənməməsi və ağıllı cihazların zəif qorunmasıdır.

İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyində (İKTA) internet və telekommunikasiya xidmətləri göstərən operatorlar və provayderlərin fəaliyyəti ilə bağlı müzakirələr keçirilib. Görüş zamanı fərdi evlərdə, mənzillərdə və müəssisələrdə "Wi-Fi" şəbəkələrinin qurulması prosesində təhlükəsizlik qaydalarına riayət edilməməsinin ciddi risklər yaratdığı qeyd olunub. Demək olar ki, hər birimizin evində və iş yerində "Wi-Fi" şəbəkəsi var. Bəs onun yaratdığı risklər barədə kifayət qədər məlumatlıyıqmı? Ümumiyyətlə, "Wi-Fi" şəbəkələrinin qurulması zamanı nələrə diqqət etməliyik?

### "ƏN BÖYÜK TƏHDİDLƏR ZƏİF ŞİFRƏLƏRDİR"

Mövzu ilə bağlı "Kaspi" qəzetinə açıqlama verən Elektron Təhlükəsizlik Xidmətinin (ETX) Kibertəhlükəsizlik sektorunun əməkdaşı Rüstəm Müzəffərov bildirib ki, fərdi evlərdə və müəssisələrdə "Wi-Fi" şəbəkələrinin təhlükəsizliyinə ən böyük təhdidlər zəif şifrələrdir: "Vətəndaşlar çox vaxt "123456" kimi sadə və asan təxmin edilə bilən şifrələrdən istifadə edirlər. Digər risklər isə köhnə şifrələmə protokollarından istifadə, routerlərin proqram təminatının yenilənməməsi və ağıllı cihazların zəif qorunmasıdır. Bu amillər kibercinayətkarların şəbəkəyə asanlıqla daxil olmasına şərait yaradır. Bu kimi risklərin qarşısını almaq məqsədilə Elektron Təhlükəsizlik Xidməti tərəfindən mütəmadi olaraq maarifləndirici kampaniyalar həyata keçirilir. Kütləvi informasiya vasitələrində, metrostansiyalarda, avtobus dayanacaqlarında və sosial şəbəkələrdə bu mövzuda xəbərdarlıqlar paylaşılır".

### PROVAYDERLƏRİN MƏSULİYYƏTİ...

ETX nümayəndəsi bildirir ki, vətəndaşların təcrübədə ən çox etdiyi səhvlər ikimərhələli identifikasiyanı aktiv etməmək, təhlükəsizlik parametrləri dəyişdirilmədən routerlərdən istifadə və açıq "Wi-Fi" şəbəkələrinə VPN-siz qoşulmaqdır: "Təhlükəsizlik tələblərinə əməl olunmadıqda, vətəndaşların fərdi məlumatları ələ keçirilə, şəbəkədən isə kiberhücumlarda istifadə oluna bilər. Müəssisələr üçün isə bu, maliyyə itkisi və reputasiya zərəri ilə nəticələnə bilər. Bu məsələdə provayderlər müştərilərə təhlükəsizliklə bağlı təlimatlar təqdim etməli, müasir və etibarlı avadanlıqlarla təmin etməli, sistem yenilənmələri ilə bağlı vaxtında məlumat verməli, valideyn nəzarəti və qonaq şəbəkəsi funksiyalarını təklif etməklə kiberrisklərin azaldılmasına dəstək göstərməlidir".







### ŞƏBƏKƏLƏRƏ CİDDİ TƏHDİD

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti Bəhruz Əliyev deyir ki, "Wi-Fi" şəbəkəsi simsiz olduğu üçün siqnal fiziki mühitdə yayılır və bu, şəbəkənin uzaqdan "görünməsi" deməkdir. Bu texnologiyanın xarakteri bəzi əsas zəifliklərə imkan verir:

- "Eavesdropping" / Paket dinlənməsi: trafik şifrələnməmiş və ya zəif şifrələmə ilə ötürülərsə, kənardakı haker paketləri oxuya bilər.
- "Man-in-the-Middle" (MitM) və "Evil Twin" hücumları: haker cihaz–router arasına girərək trafiki ələ keçirə və dəyişdirə bilər. "Evil twin" adlı saxta "access pointlər" istifadəçiləri fırıldaqçı şəbəkəyə yönləndirə bilər.
- "Firmware" zəiflikləri və yenilənmə: Router və AP-lərin (WIFI giriş nöqtələri) proqram təminatı ("firmware") zəifliklərə malik ola bilər. Yenilənmədikdə hakerlər bu zəifliklərdən istifadə edə bilərlər.
- "Brute force" / Parol qırma hücumları: zəif və sadə parollar istifadə olunarsa, hakerlər "güc metodu" ilə şəbəkəni qıra bilər.
- Protokol səviyyəsində zəifliklər.
- Siqnal sızması ("signal leakage"): "access pointlər" o qədər açıq yerlərdə yerləşdirilə bilər ki, siqnal bina xaricinə çıxar, bu, hakerlərə daha çox imkan yarada bilər.
- IoT / ağıllı cihazların zəifliyi: kameralar, sensorlar və digər "ağıllı" cihazlar tez-tez zəif parollar və yenilənmə gecikmələri səbəbi ilə şəbəkədə "arxa qapı" rolunu oynaya bilər.

Mütəxəssis vurğulayır ki, Router, AP və kabellərə fiziki əlçatanlıq varsa, konfiqurasiyanı dəyişmək, cihazı söndürmək və ya yenidən qurmaq mümkündür. Bütün bu risklər fərdi və müəssisə şəbəkələrinə ciddi təhdid yaradır: "E-poçt, serverlər, bulud xidmətləri, daxili şəbəkə resursları ələ keçirilə bilər. Xidmət dayana, istifadəçilərin əlaqəsi kəsilə bilər. Router və AP-lər zərərli proqramlara məruz qala, hakerlər "backdoor" yerləşdirə bilər. Kənar şəxslər sizin internet trafikindən istifadə edə, xərclər arta bilər. Müəssisə və fərdi şəxslər üçün itirilmiş etibar, qanuni nəticələr, maliyyə və imicin korlanmasının baş verməsi mümkündür. Xüsusilə dövlət və kritik infrastruktur sahəsində qanun və standartları pozmaqla hüquqi məsuliyyətə səbəb ola bilər".

### ATILACAQ ADDIMLAR

Mütəxəssis qeyd edir ki, güclü və unikal parol təyin etmək, "default" parolları ümumiyyətlə, parolları mütəmadi dəyişmək lazımdır: "Router / "AP firmware"lərini mütəmadi yeniləyin. Modern şifrələmə protokollarından istifadə edin: WPA3 varsa onu, yoxdursa WPA2-AES. WPS (PIN metodu) funksiyasını deaktiv edin. Qoşulmada avtomatik rejimi deaktiv edin. Cihaz yalnız istifadəçi icazəsi ilə qoşulsun. Qonaq şəbəkəsi yaradın və daxili şəbəkədən izolyasiya edin. hRouter idarəetmə interfeysini WAN tərəfində açıq olmamasını təmin edin (yalnız LAN-dan idarəetmə mümkün ola bilər). "Firewall" qurğularını aktiv edin və trafik filtrləməsini tətbiq edin. Şəbəkə monitorinqi və loglama aparıb, qeyri-adi fəaliyyətləri izləyin. Cihazları minimal qabiliyyətlərlə konfiqurasiya edin".



# AZƏRBAYCANIN YENİ İXRAC TRENDLƏRİ

**Son illərdə qeyri-ənənəvi qida məhsullarının ixracında artım müşahidə edilir. Çeşidlərin sayı da artmaqdadır. Bununla belə, ekspertlər sözügedən sahədə ekosistemin qorunmasının vacibliyini də önə çəkirlər.**

SEVİNC ABBASOVA

Azərbaycan son illər ənənəvi məhsullarla yanaşı, qeyri-ənənəvi qida məhsullarının da ixracını artırmağa başlayıb. Qida Təhlükəsizliyi Agentliyinin məlumatına görə, təkcə bu ilin avqust ayında İtaliya və Fransaya 3,6 ton qurbağa ayağı ixrac edilib. Bununla yanaşı, ABŞ-yə dörd milyon 320 min, Birləşmiş Ərəb Əmirliklərinə isə bir milyon 158 min ədəd ərzaqlıq yumurta göndərilib. Avstraliya, Albaniya və Kanadaya 42 kiloqram balıq kürüsü, İsrailə isə 18 ton dondurma məhsulu ixrac olunub. Bundan öncə isə Azərbaycan Çinə toyuq ayağı ixrac etməyə başlayıb. Bütün bunlar ölkənin ixrac coğrafiyasının və məhsul çeşidinin getdikcə zənginləşdiyini göstərir.

Maraqlıdır, görəsən, bu sahənin perspektivi varmı? Qeyri-ənənəvi məhsulların ixrac potensialını genişləndirmək üçün hansı addımlar atıla bilər?




### “RİSKLƏR OLSA DA, GƏLİRLƏR CƏLBEDİCİDİR”

Logistika məsələləri üzrə ekspert Təmraz Həmidov qeyd edir ki, bu sahənin perspektivləri kifayət qədər genişdir: “Ənənəvi məhsullarla yanaşı, qeyri-ənənəvi məhsulların ixracı həm yeni iş yerlərinin yaradılması, həm də ixrac imkanlarının şaxələndirilməsi baxımından olduqca əhəmiyyətlidir. Bu sahə ölkəyə müəyyən qədər valyuta gətirə bilər. Amma risklər də mövcuddur. Çünki spesifik sahədir, cəmiyyətdə bununla bağlı məlumatlar çox deyil, təcrübə azdır. Lakin ümumilikdə rəqabət az olduğuna görə gəlirlik baxımından daha cəlbedicidir”.

Ekspertin sözlərinə görə, sahibkarlar qeyri-ənənəvi məhsulların ixracı istiqamətində addım atmazdan əvvəl mütləq olaraq bazarı araşdırmalı, logistika və sertifikatlaşdırma ilə bağlı tələbləri nəzərə almalıdırlar. “Həm tranzit, həm də məhsulun ixrac olunduğu ölkələrin öz tələbləri var. Bizim ölkədə bu sahədə məlumat çatışmazlığı var”, - deyə ekspert bildirir.


Təmraz Həmidov

## Mexanizmlərin təkmilləşdirilməsinə ehtiyac var

Qeyri-ənənəvi ixracın stimullaşdırılması məsələsinə toxunan Təmraz Həmidov hesab edir ki, dövlətin dəstəyi burada fərqli formada həyata keçirilməlidir. Onun fikrincə, ənənəvi kənd təsərrüfatı məhsulları üçün tətbiq edilən subsidiya mexanizmləri burada effektli olmaya bilər: “İstiqamət yeni olduğundan burada ənənəvi təşviqdən söhbət getmir. Qeyri-ənənəvi sahələrdə təşviq modeli də fərqli olmalıdır. Necə ki, startaplara dəstək olmağa çalışılır, bu sahəyə də dəstək olmaq lazımdır ki, sahibkarlar ölkədə yeni məhsulları sınaya bilsinlər. Bu proses ilkin mərhələdə geniş miqyaslı ixrac olmasa belə, sınaq şəraitində nümunələrin hazırlanması ilə başlaya bilər. Həmin məhsulların beynəlxalq bazarlara çıxarılması üçün sənədləşmə prosesləri sürətləndirilməli, şəffaflığı artırılmalı və əməliyyat xərcləri azaldılmalıdır. Çünki ölkədə həm daşınma, həm də sənədləşmə ilə bağlı müəyyən çətinliklər mövcuddur”.

### “İQLİM ŞƏRAİTİ AZƏRBAYCANA ÜSTÜNLÜK VERİR”

İqtisadçı-ekspert Akif Nəsirlinin fikrincə, hələlik qeyri-ənənəvi sahələrdən valyuta gəlirləri çox böyük həcmdə olmasa da, bu istiqamətdə atılan addımlar mühüm əhəmiyyət daşıyır. Onun sözlərinə görə, pilot layihə kimi həyata keçirilən ixrac təşəbbüsləri gələcəkdə böyük imkanların əsasını qoya bilər. Ekspert bildirir ki, ixrac bazarlarında belə məhsullara tələbat mövcuddur. Azərbaycanın yerləşdiyi coğrafi mövqe və iqlim şəraiti bu məhsulların istehsalı üçün əlverişli imkan yaradır. Ekspertin sözlərinə görə, bəzi Avropa ölkələrində bu cür heyvanların sənaye üsulu ilə artırılması əlavə xərclərlə müşayiət olunur, çünki soyuq iqlim şəraiti səbəbindən ilboyu süni istilik təmin edilməlidir. Azərbaycanda isə isti günlərin sayı daha çoxdur və bu, istehsalı daha ucuz başa gətirir. Bu üstünlük ölkədə belə məhsulların daha rentabelli istehsalına şərait yaradır.


Akif Nəsirli

## “Dövlət dəstəyi vacibdir”

Akif Nəsirli onu da bildirir ki, sahibkarlar bu istiqamətdə kütləvi istehsala başlasalar, yüksək gəlir əldə edə bilərlər. Lakin ilkin mərhələdə dövlət dəstəyinin vacibliyini də vurğulayır. Onun fikrincə, hər bir yeni sahədə olduğu kimi bu sahənin inkişafında da dövlət yardımına ehtiyac olacaq. Müəyyən mərhələdən sonra isə istehsal rentabelli olduqda sahibkarlar artıq dövlətə vergi ödəməklə iqtisadiyyata töhfə verəcəklər.

### “VALYUTA GƏTİRƏN HƏR SAHƏ PERSPEKTİVLİDİR”

Kənd təsərrüfatı məsələləri üzrə ekspert Mircavid Həsənov isə ölkəyə valyuta gətirən hər sahəni perspektivli sayır. Amma mütəxəssis deyir ki, bu prosesdə ekoloji tarazlıq məsələləri mütləq nəzərə alınmalıdır. Onun sözlərinə görə, Azərbaycanda qeyri-ənənəvi məhsullar istehsal edən təsərrüfatların sayı azdır. “Masallıda kənd camaatı təbiətdən qurbağaları tutub müəyyən təhvil məntəqələrinə verirlər, onlar da ixrac edirlər. Təkcə qurbağa deyil, zəli də ixrac olunan məhsullardandır. Lakin bu sahədə ekoloji məsələlər diqqətdən kənarda qalmamalıdır. Xaric bizdən tələb edir, biz isə sadəcə təbiətdən toplayıb daşıyırıq. Halbuki bunun təsərrüfatları qurulmalıdır. Sahibkar pul qazanmaq istəyirsə, bu bizneslə etik formada məşğul olmalıdır” - deyə o qeyd edir.

### “KORTƏBİİ FƏALİYYƏT EKOSİSTEMƏ ZİYAN VURUR”

Mircavid Həsənovun fikrincə, kortəbii fəaliyyət təbiətə ziyan vurur: “Artıq böyük gölməçələrdə nə zəli, nə də qurbağa tapılır, onların kökü kəsilmək üzrədir. Halbuki xaricdə istehsal üçün bu canlıların yaxşı sortları mövcuddur. Onları gətirib burada yetişdirərək ixrac etmək mümkündür. Təbiətə ziyan vurulmadan daha savadlı şəkildə bu bizneslə məşğul olsalar, həm əla nəticə əldə edilər, həm də valyuta qazanılar”.

Ekspert vurğulayır ki, bu sahənin inkişafı üçün ölkədə kifayət qədər potensial mövcuddur. Azərbaycanın su hövzələri bu baxımdan geniş imkanlar yaradır: “Sarısu su anbarı, Qızılağac qoruğu və digər ərazilər hazır vəziyyətdədir, lakin boş qalıb. Sahibkar müvafiq icra orqanlarından həmin əraziləri icarəyə götürərək təsərrüfat yarada bilər. Göl də var, qamışlıq da var, bataqlıq da”.


Mircavid Həsənov

# SUYU HAVADAN, YOXSA YERDƏN ƏLDƏ EDƏK?



İçməli suyun əldə edilməsi ilə bağlı yeni layihələr hazırlanır. Buraya havadan su əldə edilməsi, yeraltı suların təmizlənməsi və yeni su anbarlarının tikilməsi daxildir.

## “Azərbaycanda tətbiqi realdır”



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Mütəxəssislər uzun illərdir xəbərdarlıq edirlər: yaxın illərdə içməli su çatışmazlığı bəşəriyyətin qarşılaşacağı ən böyük qlobal problemlərdən biri olacaq. Artan əhali, dəyişən iqlim, çirklənmə və israfçılıq səbəbindən su ehtiyatları sürətlə tükənir. Azərbaycan üçün də bu problem kifayət qədər aktualdır. Bu təhlükəyə diqqət çəkmək və həll yolları tapmaq məqsədilə ötən həftə Bakıda Su Həftəsi keçirildi. Bu tədbirdə su böhranına qarşı planlar, strateji yanaşmalar və innovativ təkliflər səsləndirildi.

### GƏLƏCƏK LAYİHƏLƏR

Layihələrdən biri Azərbaycanda havadan su əldə edilməsidir. Bu layihə üçün mövcud texnologiyaların öyrənilməsi, Azərbaycanın iqlim və relyef şəraitinə uyğunluğunun qiymətləndirilməsi, həmçinin iqtisadi səmərəliliyin hesablanması həyata keçiriləcək. 2026-cı ildə ölkənin müxtəlif bölgələrində bu texnologiyanın tətbiq oluna biləcəyi ərazilər müəyyən ediləcək. Əsasən içməli su qıtlığının müşahidə olunduğu, yerli su mənbələrinin kifayət etmədiyi ərazilərə üstünlük veriləcək. 2027-ci ildə havadan suyun əldə edilməsi üzrə ilk pilot layihənin həyata keçirilməsi planlaşdırılıb.

Eyni zamanda, ölkədə yüksək minerallaşmış yeraltı suların təmizlənməsi və istifadəyə cəlb edilməsi planlaşdırılıb. Digər bir layihə isə yaxın 15 ildə 26 su anbarının tikintisidir. 2025-2027-ci illərdə dörd, 2027-2030-cu illərdə doqquz, 2030-2040-cı illərdə 13 su anbarının tikintisinin tamamlanması nəzərdə tutulub.

### “BAKIDA SƏMƏRƏLİ DEYİL”

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Geoloji kəşfiyyat fakültəsinin müəllimi, hidrogeoloq Allahverdi Tağıyevin sözlərinə görə, Azərbaycanda havadan su əldə edilməsi üçün ən əlverişli cənub zonasıdır: “Burada iki əsas prinsip mövcuddur: kondensasiya - havadakı rütubətin soyudulması zamanı suyun alınması və sorbsiya - sorbentlər vasitəsilə rütubət gecə udulur, gündüz qızdırılaraq su ayrılır. Lakin nəzərə alınmalıdır ki, bu texnologiya havadakı rütubətin normadan çox olduğu ərazilərdə tətbiq edilə bilər. Respublika üzrə rütubətin yüksək olduğu ərazilərdən biri cənub zonasıdır. Burada orta illik rütubət 74% təşkil edir və sözügedən texnologiyanın tətbiqi üçün uyğundur. Bakı şəhəri və Abşeron yarımadası Xəzər dənizi sahilində yerləşdiyi üçün yarımsəhra iqliminə aid olmasına baxmayaraq, nisbi rütubət yüksəkdir. Burada orta illik nisbi rütubət 70–75% intervalındadır. Lakin bu göstərici fəsillər üzrə fərqli ola bilir. Məsələn, yayda 55–65% (ən aşağı səviyyə), qışda 80–85% (ən yüksək göstərici) təşkil edir. Yayda rütubətin aşağı düşməsi və yüksək enerji sərfi səbəbindən böyük şəhərlərdə (məsələn, Bakıda) əhalinin kütləvi su təchizatı üçün texniki baxımdan mümkün olsa da, iqtisadi cəhətdən sərfəli deyil. Ciddi hesablamalar aparılsa, bu metod mikroiqlimə və ekosistemlərə ciddi mənfi təsir göstərmir”.



Allahverdi Tağıyev

Ekspert yeraltı suların minerallaşması layihəsindən də söz açdı: “Azərbaycanda duzlu və ya minerallaşmış yeraltı sular daha çox Abşeron yarımadasında, Kür-Araz ovalığında, xüsusilə Salyan, Neftçala və Sabirabad rayonlarında, həmçinin Naxçıvan və Qobustan ərazilərində yayılıb. Bu bölgələrdə qrunt suları səthə yaxın yerləşdiyi üçün intensiv buxarlanma və dəniz suyunun intruziyası nəticəsində duzluluqları artır. Belə suların təmizlənməsi üçün ən effektiv qurğular tərs osmoz və nanotexnologiya sistemləridir”.

**Azərbaycanda havadan su əldə ediləcək**

Allahverdi Tağıyevin sözlərinə görə, bu texnologiyalar yüksək və orta minerallaşmış sular üçün daha qənaətlidir və Azərbaycanda tətbiqi realdır. Yüksək minerallaşmış sular üçün elektrodializ və hibrid üsullar da mümkündür, amma daha bahalıdır. Azərbaycanda suların təmizlənməsində nanotexnologiyadan istifadə təcrübəsi mövcuddur. Belə ki, 2015-ci ildən fəaliyyətə başlamış Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi vasitəsilə içməli suyun keyfiyyəti beynəlxalq standartlara uyğun səviyyədə təmin edilir. Burada tətbiq olunan ultrasüzgəc texnologiyası suyun tərkibindəki mikroorqanizmləri, duzları və digər çirkləndiriciləri yüksək dəqiqliklə təmizləməyə imkan verir. Bu kompleks hazırda Bakı və Abşeron yarımadasının böyük bir hissəsinin su təminatında əsas rol oynayır”.

**Yaxın 15 ildə 26 su anbarı tikiləcək**

A.Tağıyevin fikrincə, yeni su anbarları iqlim dəyişikliyinin yaratdığı risklərə qarşı mühüm vasitədir. Çünki onlar çay axınındakı mövsümi dəyişmələri tənzimləyir, quraqlıq dövründə su ehtiyatı formalaşdırır və kənd təsərrüfatında, sənayedə, həmçinin içməli su təchizatında sabitliyi təmin edir: “Amma nəzərə almaq lazımdır ki, iqlim istiləşməsi şəraitində buxarlanma artdığı üçün anbarlarda su itkisi də çoxalır. Ona görə müasir anbarlarda su itkilərini minimuma endirən texnologiyalar – üzən günəş panelləri, buxarlanma örtükləri və s. tətbiq edilməlidir”.



### “BU TEXNOLOGİYA XEYLİ ENERJİ TƏLƏB EDİR”

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın üzvü, ekoloq Rövşən Abbasov isə düşünür ki, bu layihələrin tətbiqi zamanı bəzi məqamlar nəzərə alınmalıdır: “Havadan su əldə edilməsi o qədər də məşhur texnologiya deyil. Nisbi rütubətlilik çox olan, digər su mənbələri olmayan ərazilərdə istifadə olunur. Amma bu texnologiya xeyli enerji tələb edir. Bəzi şirkətlər bu texnologiyaları gətirib fermerlərə sata bilərlər. Qrunt sularının duzsuzlaşdırılıraq su təminatı çox zəif olan yerlərə verilməsi mümkündür. Eyni prosesi kollektor sularını duzsuzlaşdıraraq etmək olar. Baş Muğan və Baş Mil kollektorları var ki, onların suları az minerallaşıb. Həmin yerlərdə suları duzsuzlaşdıraraq yerli əhalinin istifadəsinə vermək mümkündür. Amma elə yerdə etmək lazımdır ki, bu, çaylardan əlavə suların götürülməsinə səbəb olmasın”.

### EKOSİSTEM QANUNLARINA ZİDDİR?

R.Abbasovun sözlərinə görə, su anbarlarını mümkün qədər az tikməliyik. Çünki bu, çayların suyunun tənzimlənməsinə gətirib çıxarır və ekosistem qanunlarına ziddir: “Elə ərazilər var ki, orada su anbarları tez dola bilər. Bu xüsusilə selli çaylara aiddir. Məsələn, Göyçay çayı üzərində 2003-cü ildə su anbarı tikildi. Çox qısa müddətdən sonra doldu. Həm də bənddən aşağıda çox ciddi fəsadlar verdi. Çalışmaq lazımdır ki, su anbarları tikilən zaman çaylardan gedən asılı gətirmələrin miqdarı nəzərə alınsın. Bəndi tikərkən hansı çayın üzərində olmasına fikir vermək lazımdır”.



Rövşən Abbasov

# NƏ ALDIĞI PULU QAYTARIR, NƏ DƏ...

Vətən müharibəsi iştirakçısı Nadir Qasımov internetdən tapıb evinin təmiri ilə bağlı müqavilə imzaladığı şirkət tərəfindən aldadıldığını iddia edir. Təmir pulunu əvvəlcədən alan şirkət isə, nə təmirə başlayır, nə də pulu geri qaytarır.

**ƏRTURAN İSMAYIL**




Son dövrlər internet məkanında, xüsusən də sosial media platformasında vətəndaşlara qarşı dələduzluq, kibercinayətkarlıq halları artıb. Ayrı-ayrı şəxslər asan pul qazanmaq üçün “TikTok”, “Instagram” və “Facebook”da səhifələr yaradır, ödəniş müqabilində müxtəlif xidmətlər təklif edirlər. Çox təəssüf ki, bir sıra hallarda vətəndaşlar bu işbazların toruna düşür, aldadılır, maddi və mənəvi itki ilə üzləşirlər.

### “NƏ VƏSAİTİMİ QAYTARIR, NƏ DƏ MƏNZİLİMİ TƏMİR ETDİRİR”

“Kaspi” qəzetinə şikayət məktubu ilə müraciət edən Vətən müharibəsi iştirakçısı Nadir Tərlan oğlu Qasımov da sosial mediada təklif olunan tikinti-təmir xidməti elanı ilə maraqlandığını, tələb olunan şərtləri yerinə yetirdiyini, lakin sonunda gözlənilən nəticəni əldə etmədiyini, faktiki olaraq aldadıldığını, böyük maddi itki ilə üzləşdiyini bildirir. Onun sözlərinə görə, sahibi olduğu mənzili təmir etdirmək üçün “Instagram” sosial media platformasında təmir-tikinti elanları ilə maraqlanıb. “Ümid İnşaat” MMC-yə məxsus səhifədə paylaşılan ev təmiri görüntülərini bəyənib və həmin şirkətlə əlaqə saxlayıb. “Ümid İnşaat” MMC ilə vətəndaş arasında 14 yanvar 2025-ci il tarixdə Təmir Podrat Müqaviləsi bağlanıb: “Müqavilənin şərtlərinə əsasən “Ümid İnşaat” MMC mənə məxsus olan mənzili üç ay müddətində tam təmir edərək təhvil verməyi öhdəsinə götürmüşdü. Müqavilənin ümumi qiyməti 20 000 manat təşkil edirdi. “Ümid İnşaat” MMC-nin direktoru Zahir Əsgərov məni əmin etdi ki, üç ayadək mənzilimi tam təmir edib təhvil verəcəklər. Lakin sonradan nə bu öhdəlik, nə də verilən vədlər yerinə yetirildi. Sonrakı proseslər sübut etdi ki, əslində tikinti şirkətinin rəhbəri Zahir Əsgərovun əvvəldən məqsədi məni aldadaraq pulumu mənimsəmək olub. Mənzil sahibi olaraq mənimlə “Ümid İnşaat” MMC arasında 14.01.2025-ci il tarixdə imzalanan müqavilə də formal xarakter daşıyıb. Biz bunu sonradan bildik. Bizimlə müqavilə bağlamaqla Zahir Əsgərov “İş görmək” görüntüsü yaradıb. Hətta bizə bildirmişdi ki, mənzilin təmiri üçün müqavilədə qeyd olunan məbləği birdəfəlik şəkildə ödəyəcəyimiz təqdirdə, güzəşt olunacaq. Bununla bağlı “WhatsApp” sosial şəbəkəsi vasitəsilə səslər yollayıb, məni və ailə üzvlərimi inandırıb. Amma sonradan etibarımızdan sui-istifadə edib, bizə qarşı dələduzluq edib. Sən demə, müqavilənin bağlanmasında yeganə məqsəd məhz bu kimi dələduzluq əməllərini pərdələmək olub. Məndən 20 000 manatla yanaşı, xırda xərclər üçün əlavə olaraq 1000 manat məbləğində vəsait də alıb. İndi nə vəsaitimi qaytarır, nə də verdiyi vədə, imzaladığı müqaviləyə uyğun olaraq mənzilimi təmir etdirir”.


Nadir Qasımov




## ŞİKAYƏTİN İZİ İLƏ...

Vətəndaş N.Qasımov üzləşdiyi dələduzluq halı ilə əlaqədar Daxili İşlər Nazirliyinə (DİN), o cümlədən qeydiyyat üzrə Nərimanov Rayon Polis İdarəsinə müraciət etdiyini bildirib. İddia edib ki, bu günə qədər onun şikayətinin araşdırılması, dələduzluq edən Z.Əsgərovun məsuliyyətə cəlb olunması, qanun qarşısında cavab verməsi üçün əməli addımlar atılmayıb. Şikayətçi “Ümid İnşaat” MMC-nin direktoru Z.Əsgərovun dərhal məsuliyyətə cəlb olunmasını, ona vurulmuş maddi zərərin ödənilməsini istəyir.

N.Qasımovun şikayətini araşdırmaq üçün ilk növbədə adıçəkilən tikinti şirkəti ilə əlaqə saxlamağa çalışdıq. Lakin “Ümid İnşaat” MMC-nin hər hansı nümayəndəsi ilə danışmaq, şirkət ünvanına səsləndirilən ittihamlara münasibət öyrənmək cəhdlərimiz uğursuz oldu. Elanda göstərilən nömrəyə davamlı edilən zəngləri gah cavablandıran olmadı, gah da bu nömrənin aktiv olmadığı üzə çıxdı.

Bunun ardınca DİN-ə sorğu ünvanladıq. DİN-in Mətbuat Xidmətinin əməkdaşı, polis leytenantı Cəsarət Qənbərli sorğumuza cavab olaraq bildirdi ki, vətəndaş müraciəti əsasında təhqiqat araşdırmaları aparılıb: “Polisə vətəndaş Nadir Qasımovun evinin təmiri üçün paytaxtın Nərimanov rayonunda yerləşən özəl şirkətlərdən biri ilə müqavilə bağlaması və ödəniş miqdarına uyğun tikinti işlərinin aparılmaması ilə bağlı müraciəti daxil olub. Müraciət əsasında təhqiqat araşdırmaları aparılıb. Tərəflər arasında yaranan mübahisənin məhkəmə predmeti olması müəyyən edilərək vətəndaşa müvafiq cavab verilib. Tövsiyə olunub ki, mülki xarakterli halla bağlı məhkəməyə müraciət edilsin”.


Cəsarət Qənbərli

## Qanun nə deyir?

Vəkil Rəşad Əliyev bildirib ki, vətəndaşa qarşı hər hansı formada dələduzluq edilibsə, ilk növbədə hüquq-mühafizə orqanlarına müraciət olunmalıdır. Vətəndaş həmin dələduzluq halının araşdırılmasını tələb etməlidir. Araşdırma aparan orqan araşdırma nəticəsində müəyyən etsə ki, şikayət olunan tərəfin əməlində həqiqətən də dələduzluq halı, yaxud Cinayət Məcəlləsində nəzərdə tutulan hər hansı digər hüquqazidd əməl var, bununla bağlı cinayət işini başladır: “Ardınca bu əmələ yol vermiş şəxsin əməli ilə bağlı ibtidai istintaq aparılır və cinayət işi baxılması üçün məhkəməyə göndərilir. Məhkəmədə həmin şəxsə elan olunmuş ittiham üzrə təqsir müvafiq qaydada məhkəmə tərəfindən sübut olunarsa, bu zaman ittiham üzrə Cinayət Məcəlləsində nəzərdə tutulmuş cəza təyin edilir”. Vəkilin sözlərinə görə, əgər araşdırma aparan hüquq-mühafizə orqanı müəyyən etsə ki, şəxsin əməlində cinayət tərkibi yoxdur və tərəflər arasındakı münasibət mülki münasibətdir, bu halda cinayət işinin başladılmasının rədd olunması barədə qərar qəbul edilir: “Bu zaman şəxsə mülki qaydada məhkəməyə müraciət etmək tövsiyə olunur. Vətəndaş da qarşı tərəflə arasında imzalanmış hər hansı müqavilənin, razılaşmanın şərtlərinin, ümumi öhdəliklərin yerinə yetirilməməsi əsasları ilə məhkəməyə müraciət edir. Nəticə etibarilə vətəndaş ona dəymiş ziyanın ödənilməsi üçün mülki qaydada prosesə başlayır, hüquqlarını qanun çərçivəsində qoruyur”.


Rəşad Əliyev

# FƏRQLİLİKLƏRİN HARMONİYA NÖQTƏSİ

Xanım İsmayılqızı: “Əvvəllər, demək olar ki, bütün ailələrdə uşaqlar musiqi təhsili alardılar. Bir alətdə ifa etməyi öyrənərdilər. Əksər ailələrdə pianino, tar, kamança, qarmon və s. alətlər olardı. Bu ailələrdə uşağı məhz musiqiçi etmək məqsədi yox idi. Uşaqda musiqi duyumunu, zövqünü, ritmi formalaşdırmaq, hissləri itiləmək üçün idi bunlar”.

XANIM AYDIN

Musiqi bəşəriyyətin ən qədim və ən gözəl sənət formalarından biridir. Hər bir insanın musiqiyə yanaşması fərqli olur: biri Üzeyir Hacıbəyli və Qara Qarayevin dərin, zəngin bəstələrinə pərəstiş edərkən, digəri Şopenin romantik notlarında ruhlanır, bəzisi isə Motsartın nəğmələrində əbədi harmoniya axtarır. Bir çoxumuz isə pop, caz, rok və ya başqa janrlara üstünlük veririk. Amma elə anlar olur ki, qarşı tərəfin musiqi zövqü bizə “bərbad” görünür, onların dinlədiyi mahnılara biz “aşağı səviyyəli” deyirik. Biz özümüzün dinlədiyimiz klassikanın, cazın və ya popun daha üstün olduğunu düşünürük, halbuki onlar da öz zövqlərinə görə öz mahnılarını ən yaxşı sayırlar. Bu niyə belədir? Musiqi zövqü haradan yaranır və necə formalaşır?

### TƏHSİL VƏ MƏDƏNİYYƏT MÜHİTİ

Musiqi zövqü uşaqlıqdan başlayaraq, insanın yaşadığı mühit, ailəsi, aldığı təhsil və sosial çevrə ilə sıx bağlıdır. Məsələn, Azərbaycanda Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Səid Rüstəmov, Arif Məlikov kimi klassik bəstəkarların musiqisi məktəb və konservatoriya mühitində geniş tədris olunur, bu da insanların musiqi zövqünün formalaşmasında önəmli rol oynayır. Digər tərəfdən, Avropa klassikası – Motsart, Çaykovski, Şostakoviç, Bethoven, Baxın əsərləri bir çox insan üçün musiqi tərbiyəsinin əsasıdır.

### MƏDƏNİYYƏTLƏRARASI FƏRQLƏR

Musiqi hər xalqın özünəməxsus ifadə vasitəsidir. Buna görə də, bəzən başqa bir mədəniyyətin musiqisi bizim üçün anlaşılmaz və ya hətta “pis” səslənə bilər. Məsələn, Qərb musiqisinin klassik nümunələri ilə Azərbaycan xalq musiqisinin ritmləri və melodiyaları arasında ciddi fərqlər var. Bu fərqlər musiqiyə münasibəti də dəyişir.

Musiqi zövqü insanın daxili duyğuları və həyatı ilə bağlıdır. Bəzən müəyyən bir musiqi janrı və ya əsəri insanın yaşadığı emosional vəziyyətə və ya xatirələrinə uyğun gəlir və ona görə sevilir.

### MUSİQİ ZÖVQÜ VƏ KLASSİK ƏSƏRLƏR

Klassik musiqi nümunələri Azərbaycan musiqi tarixində xüsusi yer tutur. Onlar xalq musiqisi ilə Avropa klassikasını unikal şəkildə birləşdirir. Eyni zamanda, dünya musiqi xəzinəsindən böyük bəstəkarların əsərləri musiqi zövqünün formalaşmasına böyük təsir göstərir. Bu əsərlərin musiqi strukturunun mürəkkəbliyi, melodiyanın zənginliyi və harmoniyanın incəliyi insanlarda musiqiyə dərin hörmət yaradır və zövqün inkişafına səbəb olur.

### MUSİQİ ZÖVQÜNDƏ MÜBAHİSƏLƏR NİYƏ YARANIR?

Bəzən başqalarının musiqi zövqü bizə qəribə və hətta “pis” görünür. Bunun səbəblərini aşağıdakı kimi ümumiləşdirə bilərik:

Fərqli təhsil və təcrübə səviyyələri - bir insan musiqini daha çox analiz edir, digəri sadəcə əyləncə üçün dinləyir.

Mədəniyyət və dəyərlər fərqliliyi - müxtəlif cəmiyyətlərin fərqli musiqi ənənələri və qiymətləndirmələri olur.

Emosional əlaqə fərqliliyi - hər kəsin musiqi ilə bağladığı emosional təcrübə fərqlidir.

Qrup mənsubiyyəti və sosial təsirlər - bəzən musiqi zövqü qrup kimliyi ilə sıx bağlıdır, buna görə fərqli zövq qınaq obyektinə çevrilir.

### “NECƏ Kİ, MÜTALİƏYƏ, ELƏCƏ DƏ MUSİQİYƏ ÜSTÜNLÜK VERİLİRDİ”

Bəstəkar Xanım İsmayılqızı deyir ki, doğulandan formalaşma prosesindəyik: “Artıq müəyyən yaşa çatanda, yaradılan bazaya əsasən, seçim özümüzün olur. Amma bir uşağın nə eşidəcəyi, danışacağı, nə yeyəcəyi, geyinəcəyi əsasən valideynlərin, müəllimlərin ixtiyarındadır. Ana laylası ilk eşitdiyimiz musiqidir. Sonra evdə dinlənilən digər musiqilər yaddaşa yazılır və kodlanır. Ailələr, ailədəki seçimlər fərqli olduğu kimi, zövqlər də müxtəlifləşir. Baxmayaraq ki, zövq də istedad kimi səninlə doğula bilir”.

X.İsmayılqızının sözlərinə görə, əvvəllər, demək olar ki, bütün ailələrdə uşaqlar musiqi təhsili alardılar. Bir alətdə ifa etməyi öyrənərdilər. Əksər ailələrdə pianino, tar, kamança, qarmon və s. alətlər olardı: “Bu ailələrdə uşağı məhz musiqiçi etmək məqsədi yox idi. Uşaqda musiqi duyumunu, zövqünü, ritmi formalaşdırmaq, hissləri itiləmək və zənginləşdirmək üçün idi bunlar. Necə ki, mütaliəyə, eləcə də musiqiyə üstünlük verilirdi. Musiqi və söz insanın varlığıdır, kimliyidir, ifadə vasitəsidir, düşüncəsinin formasıdır, şəklidir, rəngidir. Ataların bir məsəli var: “Nə tökərsən aşına, o da çıxar qaşığına”. Nə verəcəksənsə, onu da alacaqsan. Nə ötürəcəksənsə, onu geri qazanacaqsan. Həyat bumeranqdır. Bu həm ailələrə, fərdlərə, cəmiyyətə, həm də ölkəyə aiddir”.

### MUSİQİ ZÖVQÜ - ŞƏXSİYYƏT

Bəstəkar bildirir ki, keyfiyyətli musiqi dinləmək vərdişini yarada bilirsənsə, zövqə çevrilir. Təhsil, dünyagörüşü, bilik dairəsi, musiqi duyumu da birləşib zövqü formalaşdırır: “Bəzən musiqi zövqü - şəxsiyyəti, bəzən şəxsiyyət - musiqi zövqünü formalaşdırır. Musiqi zövqü, həm də təfəkkür tərzidir. Biri roku sevir, digəri cazı, biri simfonik musiqidən həzz alır, digəri etnik musiqidən və s. Musiqi zövqü böyük, dərin, real və irreal prosesin nəticəsidir. Real olanı odur ki, uşaqlara, gənclərə, janrından asılı olmayaraq, səviyyəli musiqi ötürə bilək ki, düzgün formalaşma prosesi getsin”.

### HƏR BİR İNSANIN MUSİQİ DÜNYASI ÖZÜNƏMƏXSUSDUR

Musiqi zövqü mürəkkəb və çoxşaxəli bir fenomendir. O, insanın mədəni, sosial, psixoloji və bioloji xüsusiyyətlərinin qarşılıqlı təsiri nəticəsində yaranır. Klassik bəstəkarların musiqisi bizə musiqinin zənginliyini, dərinliyini və universal dilini göstərir. Ancaq unutmamalıyıq ki, hər bir insanın musiqi dünyası özünəməxsusdur və başqasının zövqünü aşağı səviyyəli saymaq, sanki onun daxili aləminə və duyğularına hörmətsizlikdir. Musiqinin ən gözəl tərəfi isə onun bizə fərqlilikləri anlamağı və hörmət etməyi öyrətməsidir.



ÜÇ ƏSRİN QƏZETİ
Kaspi İDMAN
4 OKTYABR ŞƏNBƏ 2025





Fotolar: Global Photostock

Azərbaycan bu dəfə III MDB Oyunlarına ev sahibliyi edir. Oyunlar 2025-ci ildə "Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" elan edilən Gəncədə və ölkənin daha altı şəhərində keçirilir.

# HƏR QƏLBDƏ BİR QƏLƏBƏ

Azərbaycan növbəti dəfə böyük multiidman yarışına ev sahibliyi edir. Bu dəfə III MDB Oyunları ölkəmizdə keçirilir. Daha əvvəl dəfələrlə mötəbər beynəlxalq turnirlərə yüksək səviyyədə ev sahibliyi etmiş Odlar Yurdu bu dəfə də zəngin təcrübəsini, qonaqpərvərliyini və təşkilatçılıq bacarığını ortaya qoyaraq dünyanın diqqətini yenidən özünə yönəldir. Azərbaycan bir daha sübut edir ki, beynəlxalq tədbirlərin keçirilməsində etibarlı mərkəzə çevrilib.

III MDB Oyunları 2025-ci ildə "Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" elan edilən Gəncədə və ölkənin daha altı şəhərində keçirilir. Bu möhtəşəm idman bayramı sentyabrın 28-də start götürüb və oktyabrın 8-dək davam edəcək. Oyunlar 23 müxtəlif idman növünü əhatə edir. Yarışların coğrafiyası olduqca genişdir: qədim mədəniyyət beşiyi Gəncədə səkkiz, su idmanı mərkəzi Mingəçevirdə dörd, turizm incisi Qəbələdə dörd, memarlığı ilə seçilən Şəkidə üç, təbiət gözəlliyi ilə tanınan Göygöldə iki, ölkəmizin coğrafi mərkəzi Yevlaxda və Qarabağın ürəyi olan Xankəndidə bir idman növü üzrə yarışlar təşkil olunur. Bu, həm Azərbaycanın idman imkanlarını, həm də bölgələrin tarixi və mədəni potensialını dünyaya nümayiş etdirən mühüm hadisədir.

III MDB Oyunlarının maskotları və şüarı da xüsusi diqqət çəkir. Gücün və cəsarətin simvolu "Bəbir" ilə incəliyin və saflığın təcəssümü olan "Leyla" bu idman bayramının rəmzləri kimi təqdim olunur. Yarışlar dərin məna daşıyan "Hər qəlbdə bir qələbə" şüarı altında keçirilir. Bu şüar həm idmançılara, həm də tamaşaçılara xatırladır ki, hər bir zəfər yalnız medal qazanmaqla ölçülmür, insanın özünü aşması və mübarizə ruhunu qoruması da bir qələbədir.

Turnir miqyası ilə də diqqət çəkir. Ümumilikdə 13 ölkədən 1 624 idmançı və 2 337 nümayəndə bu oyunlarda iştirak edir. Azərbaycan 340 idmançı ilə ən böyük heyətlə mübarizə aparır. Rusiya 262, Özbəkistan 254, Belarus 240, Qazaxıstan 147, Tacikistan 144, Qırğızıstan 126, Türkmənistan 48, Türkiyə 38, Kuba 11, Küveyt 6, Pakistan 4 və Oman 4 idmançı ilə təmsil olunur. Bu rəqəmlər sadəcə statistik göstərici deyil, həm də ortaq mədəniyyətlərarası dialoqun rəmzidir.



## REGİONLARIN İNKİŞAFINA CİDDİ YATIRIM

III MDB Oyunlarının əsas özəlliklərindən biri onun ölkəmizin bölgələrini əhatə etməsidir. İnfrastruktur və idarəetməyə yönələn böyük yatırımlar bu çoxşaxəli idman yarışını təkcə beynəlxalq səviyyəli tədbir yox, həm də regionların inkişafı və modernləşməsi üçün mühüm vasitəyə çevirir.

Bu qərar beynəlxalq turnirlərdə adət olunmuş paytaxtmərkəzli modeldən fərqli olaraq, regionları əsas hadisələrin səhnəsinə çıxarır. Şəhərlər üçün oyunlar sadəcə medal uğrunda yarış deyil, həm də uzunmüddətli inkişaf proqramının mühüm mərhələsidir.

Yarışların bölgələrə paylanması yalnız stadion və idman arenalarının tikintisi və təmiri ilə məhdudlaşmır. Bu proses nəqliyyat sistemlərinin müasirləşməsini, hotellərin say və keyfiyyət baxımından artımını, tibbi xidmətlərin gücləndirilməsini, könüllülük hərəkatının genişlənməsini və rəqəmsal idarəetmə mexanizm-lərinin tətbiqini də zəruri edir.

Ən önəmlisi isə budur ki, turnirdən sonra bu imkanlar yalnız böyük yarışlara deyil, həm də yerli əhalinin gündəlik həyatına, gənclərin idmana marağının artmasına xidmət edəcək.



## XANKƏNDİDƏKİ OYUNLARIN MƏNƏVİ ƏHƏMİYYƏTİ

Xüsusilə, Xankəndidə yarışların təşkili III MDB Oyunlarına həm idman, həm də mənəvi baxımdan böyük rəmzi məna qazandırır. Bu addım yalnız bir yarışın keçirilməsi deyil, həm də Azərbaycanın bərpa olunan suverenliyinin, ərazi bütövlüyünün və milli həmrəyliyinin parlaq nümayişidir. Orada idman alovunun yanması bütün dünyaya sülhün, birliyin və yeni başlanğıcların mesajını verir.

Gənc idmançılar üçün bu yarışlar təkcə peşəkar arenaya çıxmaq imkanı deyil, həm də öz doğma torpaqlarında karyera yolunun açıldığını görmək, gələcəyin üfüqlərini daha aydın təsəvvür etmək deməkdir. Burada qazanılan hər medal, hər qələbə təkcə fərdi nailiyyət yox, həm də tarixi bir zəfərin davamıdır.

### MÖHTƏŞƏM AÇILIŞLA DAVAM EDƏN OYUNLAR

Sentyabrın 28-də Gəncənin yeni tikilən şəhər stadionunda III MDB Oyunlarının möhtəşəm açılış mərasimi keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva iştirak ediblər. Açılış öncəsi dövlət başçısı və xanımı Vətən müharibəsi zamanı Gəncədə raket hücumlarından zərər çəkmiş uşaqlarla görüşüblər. Mərasimdə əvvəlcə Azərbaycan Bayrağı arenaya gətirilib və Dövlət Himni səsləndirilib. Daha sonra Prezident İlham Əliyev oyunları rəsmi olaraq açıq elan edib. Tədbir zəngin bədii proqramla davam edib və sonda Gəncə səması möhtəşəm atəşfəşanlıqla işıqlanıb. Elə Azərbaycanın idman, iqtisadi, sosial və siyasi gələcəyi kimi...